RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 129 (8722) ÇƏRŞƏNBƏ, 23 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Şərtləri İlham Əliyev diktə edir

## Regionun aparıcı dövləti olan Azərbaycanın statusu getdikcə daha da yüksəlir

İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu daha da möhkəmləndirdi. İndi qalib ölkə kimi Azərbaycan oyun qaydalarını özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə əməkdaşlıq təkliflərini açıq şəkildə bildirir.

Qarabağın düşmən tapdağından təmizlənməsindən sonra regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanları çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərir.

Prezident İlham Əliyev hər çıxışında, müsahibəsində, görüşlərində yaranmış reallıqları dəyərləndirməklə regionun gələcək inkişafı üçün real imkanların mövcudluğunu göstərir və qeyd edir ki, bu durum ilk növbədə bölgədə uzunmüddətli sülhün təmin olunmasını şərtləndirir.

### Ermənistan ictimaiyyəti Azərbaycanla münasibətlərin normallaşmasına səs verdi

Birmənalı şəkildə deyə bilərik ki, artıq regionun gələcək inkişafı üçün nadir imkanlar yaranıb. Xüsusən də kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması, qarşılıqlı ticarət imkanlarından faydalanmaq bütün tərəflərə ilk növbədə iqtisadi dvidentlər vəd edir.

Hətta Ermənistan da proseslərin tərkib hissəsi ola bilər, əgər üzərinə düşən öhdəlikləri, yəni 10 noyabr bəyanatının şətrlərini tam olaraq icra etsə. Bu, həm də acınacaqlı durumda olan işğalçı ölkə vətəndaşlarına "gün ağlaya" bilər.

Bu durumu elə erməni xalqı da çox yaxşı anlayır. Bu səbəbdəndir ki, ölkədə keçirilən növbədənkənar parlament seçkilərində Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş müqaviləsi" partiyası səslərin çoxunu qazandı. Yəni erməni xalqı onu rəzil gününə qoyan şər qüvvələr arasından nisbətən zərərsizini seçmiş oldu.

Səbəblər də bəllidir. N.Paşinyanın İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra verdiyi açıqlamalar ölkə əhalisinin mütləq əksəriyyətinin razılığına səbəb olub. Belə ki, Paşinyan xalqa müraciətlərində yeni reallıqlarla barışmağa məcbur olduqlarını söyləyirdi. Dedi ki, ölkənin düşdüyü bu ağır durumdan qurtuluşun yeganə yolu Azərbaycanla münasibətlərin normallaşmasından keçir. Yəni, regiondakı kommunikasiyaların blokadadan çıxarılması həm Ermənistan, həm də Azərbaycan üçün faydalıdır. Yolların açılması Ermənistan üçün çox faydalıdır, çünki Rusiya və İranla etibarlı dəmir yolu əlaqəsi yaranacaq. Bu da Ermənistan iqtisadiyyatını əhəmiyyətli dərəcədə dəyişə bilər.

Ardı 8-ci səh.

◆ Milli Məclisin iclasında

# Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini yeni səviyyəyə yüksəltdi

İyunun 22-də Spiker Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbədənkənar sessiyasının iclası keçirilib.



İclasa başlamazdan əvvəl Milli Məclisin Sədri bu günlərdə Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın ölkəmizə rəsmi səfəri, Milli Məclisə təşrif buyurması və deputatlar qarşısındakı çıxışı barədə fikirlərini bölüşüb.

Bildirib ki, Türkiyə Cümhuriyyətinin Prezidenti, türk dünyasının böyük siyasi və dövlət xadimi cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Cümhuriyyəti möhtəşəm inkişaf yolu keçib. Cəmiyyət və dövlət həyatının bütün sahələrində heyrət doğuran uğurlar qazanılıb.

Bu gün siyasi, iqtisadi, hərbi gücünə görə Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən biridir. Qardaş ölkənin bu yüksəlişi bizi ürəkdən, təbii ki, sevindirir, çünki Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür.

Spiker diqqətə çatdırıb ki, Azərbaycanla Türkiyə arasında ortaq dəyərlərə əsaslanan səmimi münasibətlər beynəlxalq aləmdə nadir hadisədir. Xalqlarımızın və dövlətlərimizin dostluğu və qardaşlığı bizim ən böyük sərvətimizdir. Biz həmişə məmnunluqla söyləyirik ki, ölkələrimiz arasında münasibətlər Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi "bir millət, iki dövlət" prinsipi üzərində qurulub.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, "Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq".

Milli Məclisin Sədri vurğulayıb ki, bizim xalqlarımız XX əsrin əvvəllərində Çanaqqala zəfərinin qazanıldığı, Bakının erməni-bolşevik zülmündən xilas edildiyi dövrdə də, 2020-ci ilin sonlarında Vətən müharibəsində erməni faşizminin darmadağın edildiyi günlərdə də bir idilər, bu gün də birgədirlər və həmişə birlikdə olacaqlar. Ermənistanın 30 ildən bəri işğal altında saxladığı əzəli və tarixi torpaqlarımızı əsarətdən qurtarmaq, Qarabağda Azərbaycan bayrağını yüksəltmək üçün müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun apardığı hərbi əməliyyatlar zamanı dünya Türkiyə-Azərbaycan dostluğuna və qardaşlığına bir daha şahid oldu.

Müharibənin ilk saatlarından sonuna qədər Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın verdiyi mənəvi və siyasi dəstək, bütün Türkiyənin, türk xalqının tutduğu qəti mövqe hər kəsə göstərdi ki, Azərbaycan haqq işi uğrunda mübarizədə tək deyildir. Türkiyə və onun lideri hər yerdə və hər zaman Azərbaycanın yanındadır.

Xanım Sədr qeyd edib ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi Cənubi Qafqaz bölgəsində yeni reallıq yaradıb. Bu gün Azərbaycanla Türkiyənin birgə səyləri ilə bölgənin geosiyasi mənzərəsini dəyişən layihələr planlı şəkildə və əzmlə həyata keçirilir.

Spiker vurğulayıb ki, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilmiş bölgəni, xüsusən Şuşanı ziyarət etməsi, Azərbaycan mədəniyyətinin incisi və tacı olan bu şəhərdə Azərbaycan və Türkiyənin ay-ulduzlu bayraqlarının qoşa dalğalanması, iki qardaş ölkənin rəhbərləri arasında keçirilən görüşlər xalqlarımızın qardaşlığının yeni bir nümayişi oldu. Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə Türkiyə-Azərbaycan münasibətlərini yeni səviyyəyə yüksəltdi.

Milli Məclisin Sədri bildirib ki, Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Milli Məclisdə çıxışı da bir daha göstərdi ki, Türkiyə ilə Azərbaycanın dostluğu və qardaşlığı əbədi və sarsılmazdır. Türkiyə dövlətinin başçısı öz çıxışında bir sıra mesajlar verdi. Ən önəmli mesajlardan biri də bu idi ki, Türkiyə bu gün də bütün imkanları ilə Azərbaycanın yanındadır və bütün dünya bilsin ki, sabah da onun yanında olacaqdır.

Sahibə Qafarova çıxışının sonunda qeyd edib ki, bizim xalqlarımızın könül birliyi əsrlərin sınağından çıxıb və bu gün iftixar mənbəyimizdir. Əminliklə demək olar ki, Azərbaycan-Türkiyə münasibətləri bundan sonra daha sürətlə inkişaf edəcək, xalqlarımıza və dövlətlərimizə yeni böyük uğurlar gətirəcəkdir.

Ardı 4-cü səh.

# BİRLİK və HƏMRƏYLİYİN ZƏFƏRİ və ZİRVƏSİ



Azərbaycan və Türkiyə münasibətlərinin çoxəsrlik təcrübəsində möhkəm qarşılıqlı etimad, aydın mövqe və amal birliyi həmişə hər şeydən üstün olmuşdur.

Türkiyə Cümhuriyyətinin böyük qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri kədərimizdir" sözləri ölkələrimiz və xalqlarımız arasındakı sarsılmaz birliyi və həmrəyliyi aydın şəkildə ifadə edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" düsturu da Türkiyə və Azərbaycan arasındakı tarixi bağlılığı, bugünkü tale ortaqlığını, gələcəkdə də birlikdə olmaq zərurətini atalar sözü səviyyəsində mənalandırır.

Artıq Azərbaycanda olduğu kimi, Türkiyədə də ölkələrimiz arasında birlik və bərabərlik anlayışı ideologiya yox, ideal kimi qəbul edilir.

Ardı 6-cı səh.

◆ 23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

# İnnovativ idarəçilik güclü dövlətin təməlidir

Dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin təşkili ölkənin önləyici inkişafını, indiki və gələcək nəsillərin rifahını və təhlükəsizliyini təmin edən həlledici amillərdir. Azərbaycan Respublikasının örnəyi bunun parlaq təzahürüdür.

Beynəlxalq təşkilatların məlumatlarına görə, müstəqilliyinin bərpasından keçən qısa müddətdə ölkə iqtisadi, sosial, humanitar inkişaf və təhlükəsizlik sahələrində yüksək nəticələr əldə etmişdir. Bu, Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi texnologiyalarının tətbiqi və çevik dövlət qulluğu sisteminin təşkili, həmçinin səmərəli fəaliyyət göstərən kadr potensialının formalaşdırılması nəticəsində mümkün olmuşdur.

Dünyada bütövlükdə dövlət qulluğu sisteminin təşkilinin, dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar mövcuddur. Azərbaycan Respublikasında bu prosesin təşkilinə daha müasir yanaşma ortaya qoyulub. Burada dövlət qulluğu sistemi, dövlət qulluqçularının fəaliyyət səmərəliliyi ölkənin iqtisadi, sosial və humanitar, həmçinin təhlükəsizliyinin təmini sahələrində əldə etdiyi son nəticələrə görə dəyərləndirilir.

Ardı 7-ci səh.

# İyulun 1-dən Azərbaycanda şənlik mərasimlərinin keçirilməsinə icazə verilir

Son aylarda COVID-19 infeksiyasına yoluxma hallarının sayında əhəmiyyətli azalma və ümumi epidemioloji vəziyyətin müsbətə doğru dəyişməsi həyata keçirilən səmərəli tədbirlərin təzahürüdür.

Müşahidə olunan müsbət tendensiya, habelə 2021-ci ilin əvvəlindən həyata keçirilməsinə başlanmış vaksinasiya prosesinin uğurla davam etdirilməsi xüsusi karantin rejimi çərçivəsində tətbiq olunmuş bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına əlavə imkanlar yaradır.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargah 2021-ci il iyulun 1-dən aşağıda göstərilən şərtlər nəzərə alınmaqla şənlik mərasimlərinin (toy, nişan, ad günləri və s.) keçirilməsinə icazə verilməsi haqqında qərar qəbul edib:

- 50 nəfərdən 150 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərinə münasibətdə:

- yaşı 18-dən yuxarı olan bütün şəxslərin iştirakına yalnız COVID-19-a qarşı tam peyvənd olunması və ya COVID-19-dan sağalaraq immunitetə malik olması barədə təsdiqedici sənəd (bundan sonra - COVID-19 pasportu) olduğu halda icazə verilir və şənlik mərasimlərində iştirak edən qonaqlar üçün tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə tələbi ləğv edilir;

Ardı 11-ci səh.

UEFA EURO2020






# ƏZMİN GÜCÜ

**B qrupu**

**Rusiya - Danimarka - 1:4**
**Qollar:** *Damsqaard, 38 (0:1), Poulsen, 59 (0:2), Dzyuba, 69-pen. (1:2), Kristensen, 79 (1:3), Mahle, 82 (1:4)*
**Baş hakim:** *Klemen Turpin (Fransa)*
**Kopenhagen.** *"Parken" stadionu*

Bu qrupda ötən tur Belçika 1/8 finala vəsiqə qazanmışdısa, digər 3 komanda həmin yer uğrunda mübarizəni davam etdirirdi. Danimarka Rusiyaya, Belçika isə Finlandiyaya qalib gəldikdən sonra sözügedən hər 3 komandanın 3 xalı olub. Top fərqindəki üstünlüyə görə Danimarka qrupdan çıxıb. Rusiya turnirlə vidalaşmalı olub. Finlandiyanın isə ən yaxşı 3-cü yerin sahibi kimi 1/8 finala çıxmaq şansı qalır.

Futbolda taktika, oyun planı və ustalıq çox vacib məsələlərdəndir. Ancaq əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmaya daha fərqli motivasiya edir. Məhz Rusiya-Danimarka matçında bunun şahidi olduq. Danimarkalılar meydançanın Rusiyaya aid hissəsində tətbiq etdikləri pressinqlə rusların oyun qurmasına imkan vermədilər.



Ardı 10-cu səh.

# Ermənistanda seçkilərdən sonra da sular durulmur

## Ölkədə siyasi sabitliyin pozulacağı ehtimal olunur

Ermənistanda növbədənkənar parlament seçkiləri artıq arxada qalsa da, ölkədə siyasi gərginlik səngimir. Məlum olduğu kimi, səsvermənin nəticələrinə görə, baş nazirin səlahiyyətlərini icra edən Nikol Paşinyanın "Vətəndaş müqaviləsi" partiyası seçkilərdə səslərin 53, 92 faizini toplayaraq qələbə qazanmışdır. Hökuməti təşkil etmək və baş nazir vəzifəsinə namizəd irəli sürmək hüququ parlament çoxluğuna məxsusdur.

Parlamentdə ana müxalifət kimi eks-prezident Robert Koçaryanın "Ermənistan" bloku (21,04 faiz) təmsil olunacaq. Seçkilərdə gözlənilməz hadisə ölkənin ən varlı biznesmenlərindən biri Qagik Sarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyasının (3,96 faiz) bu dəfə parlamentə düşməməsidir. Bu partiya 5 faizlik baryeri aşa bilməmişdir.

Adi prosedura uyğun olaraq, səsvermənin rəsmi nəticələri elan edildikdən sonra qalib partiyanın yeni və köhnə lideri Paşinyan hökuməti təşkil etməyə başlayacaq.

Ardı 8-ci səh.

# "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında"

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 12-ci və 13-cü bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2632 nömrəli Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

**Maddə 1. Şuşa Şəhəri Dövlət Qoruğu**

1.1. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılır.

1.2. Şuşa Şəhəri Dövlət Qoruğu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə edilir.

**Maddə 2. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisi**

2.1. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisini Şuşa şəhərinin inzibati sərhədləri daxilində yerləşən torpaq sahələri təşkil edir.

2.2. Şuşa şəhərinin inzibati sərhədlərinə bitişik yerləşən və onunla təbii-landşaft, sosial, tarixi, mədəni və ya təsərrüfat bağlılığı olan və ya Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizəsi, qorunması və ya inkişafı üçün əhəmiyyətə malik olan ərazilərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən mühafizə zonasının sərhədləri müəyyən edilir.

**Maddə 3. Şuşa şəhərində dövlət siyasətinin əsas istiqamətləri**

3.1. Şuşa şəhərində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

3.1.1. Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğini təmin etmək;

3.1.2. Şuşa şəhərində yerləşən tarix və mədəniyyət abidələrinin (bundan sonra - abidələr) həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin etmək;

3.1.3. Şuşa şəhərində effektiv dövlət idarəetməsinin təşkili və tətbiqini təmin etmək, şəhər həyatının bütün sahələrində innovativ həllərdən istifadəni dəstəkləmək;

3.1.4. Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət (rekreasiya) potensialından tam yararlanmaq üçün əlverişli şərait yaratmaq;

3.1.5. Şuşa şəhərinin ərazisində sahibkarlıq fəaliyyətinin canlanmasını və inkişafını təmin etmək;

3.1.6. Şuşa şəhərinin ərazisində elmi-tədqiqat, ənənəvi sənətkarlıq və digər məşğuliyyət növlərinin inkişaf və nümayiş etdirilməsi üçün tədbirlər görmək;

3.1.7. Şuşa şəhərində mədəniyyət fəaliyyətini və mədəniyyət xidmətlərini təşviq etmək;

3.1.8. Şuşa şəhərinin beynəlxalq mədəni əlaqələrinin inkişafını təmin etmək, habelə şəhərin dünya tarixi-mədəni irsinin incilərindən biri kimi nüfuzunu möhkəmləndirmək.

**Maddə 4. Şuşa şəhərinin ərazisində və onun mühafizə zonasında hüquqi tənzimləmə**

4.1. Şuşa şəhərinin ərazisində bu Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilən hüquqi tənzimləmə tətbiq edilir.

4.2. Şuşa şəhərinin ərazisində hüquqi tənzimləmənin sahələri aşağıdakılardır:

4.2.1. abidələrin bərpası, qorunması, öyrənilməsi, istifadəsi və təbliği;

4.2.2. ətraf mühitin mühafizəsi;

4.2.3. tikinti, memarlıq və şəhərsalma fəaliyyəti;

4.2.4. sahibkarlıq fəaliyyəti;

4.2.5. turizm (rekreasiya) fəaliyyəti, habelə yerli, ölkə və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi;

4.2.6. reklam fəaliyyəti;

4.2.7. nəqliyyatın təşkili, o cümlədən Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisinə giriş-çıxışın tənzimlənməsi;

4.2.8. mənzil fondunun idarə edilməsi;

4.2.9. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisində dövlət idarəetməsinin təşkili və Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi.

4.3. Bu Qanunun 4.2-ci maddəsində nəzərdə tutulan sahələr üzrə Şuşa şəhərində tənzimləmə ilə bağlı əlavə tələblər müəyyən edilə bilər.

4.4. Şuşa şəhərinin mühafizə zonasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən mühafizə rejimi tətbiq edilir.

**Maddə 5. Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, istifadəsi və təbliği**

5.1. Şuşa şəhərinin ərazisində yerləşən abidələrin dövlət mühafizəsinin və qorunmasının təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təmin edilir.

5.2. Şuşa şəhərinin ərazisində abidələrin tarixi-memarlıq və bədii-estetik görkəminin dəyişdirilməsi, abidələrin uçurulması və ya onlar üçün təhlükə yarada biləcək hər hansı fəaliyyətin həyata keçirilməsi qadağandır.

5.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlər verə bilər. Yazılı göstərişin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

5.4. Yazılı göstərişə əməl edilmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) göstərişdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin edir və çəkilmiş xərcləri, habelə dəymiş zərərin əvəzini göstərişi icra etməmiş şəxslərdən tələb edir.

5.5. Şuşa şəhərinin ərazisində abidələrin öyrənilməsi və arxeoloji qazıntıların aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə həyata keçirilir. Belə razılıq verilərkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınır.

5.6. Şuşa şəhərinin ərazisində arxeoloji qazıntılar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nəzarəti ilə aparılır. Arxeoloji qazıntılar abidələrə zərər yetirilmədən aparılmalıdır. Arxeoloji qazıntılar zamanı aşkar edilən abidə, əşya və ya başqa tapıntının koordinatları və vəziyyəti qazıntı işlərinin təşkilatçısı tərəfindən qeyd edilməli, fotosu və ya videosu çəkilməlidir. Bu işlərin gedişində aşkar edilən arxeoloji materiallar dövlət mülkiyyəti hesab olunur.

5.7. Dünya əhəmiyyətli abidələr istisna olmaqla, dövlət mülkiyyətində olan digər abidələr və ya onların hissələri Şuşa şəhərinin Baş planına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən, xüsusi mülkiyyətdə olan abidələr və ya onların hissələri isə elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün onların istifadə məqsədlərini və xüsusiyyətlərini müəyyənləşdirən istifadə proqramı, uyğunlaşdırma və bərpa layihələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırıldıqdan sonra icarəyə (istifadəyə) verilə bilər. Mülkiyyətində abidələr olan hüquqi və fiziki şəxslər abidələri və ya onların hissələrini digər məqsədlər üçün icarəyə (istifadəyə) verdikdə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

5.8. Şuşa şəhərinin ərazisində yerləşən abidələri və ya onların ayrı-ayrı hissələrini icarəyə (istifadəyə) götürən fiziki və ya hüquqi şəxslər onların həcm kompozisiyasını, xarici görünüşünü, konstruktiv elementlərini dəyişdirməməli, istismar zamanı abidələrə zərər vurmamalı və təsərrüfat işləri zamanı arxeoloji abidələrdə mədəni təbəqənin korlanmasına yol verməməlidirlər.

5.9. Şuşa şəhərinin ərazisində "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə yol verilmir. Yerli əhəmiyyətli abidələrin özəlləşdirilməsinə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı əsasında "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yol verilir.

5.10. Xüsusi mülkiyyətdə olan abidələr satıldıqda dövlət onları almaqda üstün hüquqa malikdir.

5.11. Dövlət mülkiyyətində olan abidələrin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında həyata keçirilir. Dövlət mülkiyyətində olmayan abidələr ilə əlaqədar bu işlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə mülkiyyətçi (icarəçi və ya istifadəçi) tərəfindən və onun hesabına aparılır.

5.12. Şuşa şəhərinin ərazisində abidələrin mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında abidələrin qorunmasına dair forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən mühafizə müqavilələri bağlanılır. Abidələrin mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri həmin abidələrin salamatlığına görə qanuna uyğun olaraq məsuliyyət daşıyırlar.

5.13. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülkiyyətində, istifadəsində və ya icarəsində abidələrin olduğu fiziki və ya hüquqi şəxslər tərəfindən abidələrin qorunması və ya mühafizə müqavilələrinin şərtlərinə əməl edilməsi vəziyyətini yoxlamaq məqsədilə abidələrdə monitorinq keçirmək hüququna malikdir. Monitorinqin keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

5.14. Şuşa şəhərinin ərazisində abidələr ilə bağlı bu Qanunla tənzimlənməyən məsələlər "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 6. Şuşa şəhərinin ərazisində ətraf mühitin mühafizəsi**

6.1. Şuşa şəhərinin ərazisində ətraf mühitin mühafizəsi "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.2. Şuşa şəhəri ərazisində ekoloji təmiz enerji təchizatına, resursların davamlı istifadəsinə, emal və təkrar emal sahələrinin inkişafına, atmosfer və ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsinə, su və torpaq resurslarından səmərəli istifadəyə, həmçinin bu sahədə bütün proseslərin informasiya sistemləri vasitəsilə idarə edilməsinə üstünlük verilir.

**Maddə 7. Şuşa şəhərinin ərazisində tikinti, memarlıq və şəhərsalma fəaliyyəti**

7.1. Şuşa şəhərinin ərazi planlaşdırılması sənədini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən, habelə özündə müfəssəl həlləri ehtiva edən şəhərin Baş planı təşkil edir.

7.2. Şuşa şəhərinin ərazisində həyata keçirilən bütün tikinti-quraşdırma, abadlıq, təmir, bərpa, konservasiya, rekonstruksiya və regenerasiya işləri şəhərin Baş planına, ərazinin memarlıq üslubuna uyğun olmalıdır.

7.3. Şuşa şəhərinin ərazisinin zonalaşdırılması Baş planda müəyyənləşdirilir.

7.4. Tarixi və arxeoloji əhəmiyyət kəsb edən ərazilərdə tikinti, bərpa, təmir və təsərrüfat işləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndəsinin iştirakı ilə aparılır və bu zaman həmin ərazi əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzərdən keçirilir və abidələrin ilkin tədqiqi təmin edilir.

7.5. Şuşa şəhərinin ərazisində inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən arxeoloji abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir.

7.6. Şuşa şəhərinin ərazisində tikinti niyyətinin həyata keçirilməsi ilə bağlı tikintiyə icazə və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri müvafiq ərazinin planlaşdırılması tələblərinə uyğunluğunun müəyyən edilməsi, belə icazələrin verilməsindən və uyğunluğun müəyyən edilməsindən, habelə tikinti fəaliyyətindən irəli gələn digər məsələlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi ilə tənzimlənir.

**Maddə 8. Şuşa şəhərinin ərazisində sahibkarlıq fəaliyyəti**

8.1. Şuşa şəhərinin ərazisində onun inkişafına yönəlmiş infrastrukturun, investisiya qoyuluşu və investorların fəaliyyəti üçün şəraitin yaradılması təmin edilir.

8.2. Şuşa şəhərinin ərazisində onun tarixi, mədəni, elmi, estetik, rekreasiya dəyərlərinə xələl gətirə bilən, abidələrə və ya təbii landşafta, ekoloji mühitə təhlükə yarada bilən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq qadağandır.

8.3. Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 9. Şuşa şəhərinin ərazisində turizm (rekreasiya) fəaliyyəti, habelə yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi**

9.1. Şuşa şəhərinin ərazisində abidələrə xələl gətirmədən turizm (rekreasiya) infrastrukturunun yaradılması təmin edilir, habelə maddi və qeyri-maddi mədəni irsin qorunmasına və təbliğinə dair məlumat mərkəzləri təşkil edilir.

9.2. Şuşa şəhərinin ərazisində yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının, konsert və musiqi festivallarının, sərgi və ekskursiyaların keçirilməsi, sənədli və bədii filmlərin, televiziya verilişlərinin və reklam çarxlarının çəkilişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə əvvəlcədən razılaşdırılmalıdır.

**Maddə 10. Şuşa şəhərinin ərazisində reklam fəaliyyəti**

10.1. Şuşa şəhərinin ərazisində siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş abidələrin üzərində və onların mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağandır.

10.2. Şuşa şəhərinin ərazisində Şuşa şəhərinin mədəniyyət paytaxtı kimi təşviqinə dəstək olan reklamların yerləşdirilməsinə üstünlük verilir.

10.3. Şuşa şəhərinin ərazisində şəhərin tarixi-mədəni irsinə, mədəniyyətinə və şöhrətinə xələl gətirə bilən reklam yerləşdirilməsi qadağandır.

10.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Şuşa şəhərinin ərazisində açıq məkanda reklam fəaliyyətinə nəzarəti həyata keçirir, o cümlədən reklam yerləşdirilməsinə icazə verir, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklər edilməsinə, istismarına icazə verir, tikintisinə icazə tələb olunmayan reklam qurğularının quraşdırılması və sökülməsi ilə əlaqədar müvafiq tədbirlər görür, habelə şəhərin mühafizə zonasında reklam yerləşdirilməsinə razılıq verir.

10.5. Şuşa şəhərinin ərazisində reklam fəaliyyəti ilə bağlı bu Qanunda tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi və "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 11. Şuşa şəhərinin ərazisində nəqliyyatın təşkili**

11.1. Şuşa şəhərinin ərazisində nəqliyyat infrastrukturunun, o cümlədən şəhərin hissələrinə giriş-çıxışın təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

11.2. Şuşa şəhərinin ərazisində ekoloji təmiz nəqliyyat vasitələrinə üstünlük verilir və onlardan istifadə təşviq edilir.

11.3. Şuşa şəhərinin ərazisində mövcud olan yollarda və ya şəhərin mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaradarsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin yollarda nəqliyyat vasitələrindən istifadəyə məhdudiyyət tətbiq edilə və ya bu cür istifadə qadağan edilə bilər.

**Maddə 12. Şuşa şəhərinin ərazisində mənzil fondunun idarə edilməsi**

12.1. Şuşa şəhərinin ərazisində dövlət mənzil fondu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə edilir.

12.2. Şuşa şəhərinin ərazisində mənzil hüququnun həyata keçirilməsi, habelə əhalinin əmlak hüquqları ilə bağlı bu Qanunda tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Mənzil Məcəlləsi və digər qanunları ilə tənzimlənir.

**Maddə 13. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisində dövlət idarəetməsinin təşkili və Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi**

13.1. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisində dövlət orqanları (qurumları) tərəfindən fiziki və hüquqi şəxslərə göstərilən xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) və ya elektron qaydada təşkil edilir.

13.2. Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi dövlət büdcəsindən ayrılan vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

13.3. Şuşa Şəhəri Dövlət Qoruğunun qorunması, bərpası, yenidən qurulması, öyrənilməsi və inkişafı sahəsində işlərə dəstək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən xüsusi fond yaradılır.

13.4. Fondun vəsaiti fiziki və hüquqi şəxslərin yardımları (ianələri), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır.

13.5. Fondun vəsaitlərinin formalaşması və istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 14. Şuşa şəhərinin ərazisində vergilər və digər məcburi ödənişlər**

Şuşa şəhərinin ərazisində tətbiq edilən vergilər və digər məcburi ödənişlər Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və Azərbaycan Respublikasının digər qanunlarına uyğun olaraq müəyyən edilir.

**Maddə 15. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2021-ci il*

# "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci, 2.2-ci, 4.4-cü, 5.1-ci maddələrində, 5.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 5.4-cü maddəsində, 5.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 5.6-cı maddəsinin birinci cümləsində, 5.7-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 5.9-cu maddəsinin ikinci cümləsində, 5.11-ci maddəsinin birinci və ikinci cümlələrində, 5.12-ci maddəsinin birinci (hər iki halda) cümləsində, 5.13-cü maddəsinin birinci və ikinci cümlələrində, 7.1-ci, 7.4-cü (hər iki halda) maddələrində, 7.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 8.3-cü, 9.2-ci, 10.1-ci, 10.4-cü, 11.1-ci, 11.3-cü, 12.1-ci, 13.1-ci, 13.3-cü və 13.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13.3-cü və 13.5-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 2.2-ci, 4.4-cü maddələrində, 5.3-cü maddəsinin ikinci cümləsində, 5.12-ci maddəsinin birinci cümləsində (ikinci halda), 5.13-cü maddəsinin ikinci cümləsində, 7.1-ci, 8.3-cü və 10.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.2-ci, 5.1-ci maddələrində, 5.3-cü maddəsinin birinci cümləsində, 5.4-cü maddəsində, 5.5-ci maddəsinin birinci cümləsində, 5.6-cı maddəsinin birinci cümləsində, 5.7-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 5.9-cu maddəsinin ikinci cümləsində, 5.11-ci maddəsinin birinci və ikinci cümlələrində, 5.12-ci maddəsinin birinci cümləsində (birinci halda), 5.13-cü maddəsinin birinci cümləsində, 7.4-cü (hər iki halda) maddəsində, 7.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 9.2-ci, 10.4-cü, 11.1-ci, 11.3-cü və 12.1-ci maddələrində "orqan (qurum)" dedikdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi nəzərdə tutulur;

1.5. həmin Qanunun 5.5-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Milli Elmlər Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. həmin Qanunun 2.2-ci maddəsinə uyğun olaraq, Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının sərhədlərini müəyyənləşdirib təsdiq etsin;

2.1.3. həmin Qanunun 4.4-cü maddəsinə uyğun olaraq, Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının mühafizə rejimini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.1.4. həmin Qanunun 5.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmununu, habelə təhlükənin aradan qaldırılması tədbirlərini, onların həyata keçirilməsi qaydasını və müddətini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.5. həmin Qanunun 5.12-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqavilələrinin formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.6. həmin Qanunun 5.13-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində abidələrin monitorinqinin keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.7. həmin Qanunun 8.3-cü maddəsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.8. həmin Qanunun 10.1-ci maddəsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində üzərində və mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.9. həmin Qanunun 13.2-ci və 14-cü maddələrinə uyğun olaraq, Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi mənbələrinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# Kəlbəcər rayonu ərazisində dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinin elektrik enerjisi ilə təchizatı haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kəlbəcər rayonu ərazisində dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinin etibarlı və dayanıqlı elektrik enerjisi ilə təchizatı məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə 24.500.000,0 (iyirmi dörd milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# Məişət tullantıları ilə bağlı idarəetmə sahəsində bəzi məsələlərin tənzimlənməsi və "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında yaşayış məntəqələrinin abadlaşdırılması və ətraf mühitin qorunması dayanıqlı inkişaf prinsiplərinə əsaslanan müasir üsullarla təmin edilir. Bu çərçivədə tətbiq edilən tullantıların idarə edilməsi sistemi ətraf mühitin mühafizəsi standartlarına uyğun olmaqla, şəhərlərin ekologiyasının yaxşılaşmasına əhəmiyyətli təsir göstərir.

Ölkədə ekoloji tarazlığın mühafizəsi məqsədilə tullantıların idarə edilməsi sahəsində formalaşmış təcrübənin digər ərazilərdə, o cümlədən Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərində reallaşdırılması atmosferə və ətraf mühitə mənfi təsirlərin azaldılması, resurslardan davamlı istifadə, habelə müasir ekoloji idarəetmə sisteminin inkişafı üçün geniş imkanlar yaradar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsi sisteminin müasir tələblərə uyğun təşkili işlərinin davam etdirilməsi, bu prosesin mütəşəkkil qaydada həyata keçirilməsi, habelə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin müsbət təcrübəsindən istifadənin əhatə dairəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. Şuşa şəhərinin ərazisində əmələ gələn bütün bərk məişət tullantılarının yığılmasını, daşınmasını, yerləşdirilməsini və zərərsizləşdirilməsini "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti həyata keçirsin.

2. "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 750; 2010, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında "Bakı şəhərində məişət" sözləri "Məişət" sözü ilə əvəz edilsin;

2.2. preambula üzrə:

2.2.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasında əldə edilən sosial-iqtisadi nailiyyətlər yaşayış məntəqələrinin müasir şəhərsalma və tikinti fəaliyyətinin prinsipləri əsasında inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır.";

2.2.2. dördüncü abzasda "Bakı şəhərində məişət" sözləri "Məişət" sözü ilə əvəz edilsin;

2.3. 2-ci hissəyə "zərərsizləşdirilməsi" sözündən sonra ", həmçinin Bakı şəhərinin Qala qəsəbəsinin və Şuşa şəhərinin ərazisində əmələ gələn belə tullantıların yığılması və daşınması" sözləri əlavə edilsin;

2.4. 4-cü hissəyə "Bakı şəhərinin ərazisində" sözlərindən sonra "(Qala qəsəbəsi istisna olmaqla)" sözləri əlavə edilsin;

2.5. 6-cı hissədə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365, № 6, maddə 637; 2015, № 3, maddə 272; 2018, № 5, maddə 899; 2020, № 9, maddə 1149) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. Azərbaycan Respublikası Energetika Nazirliyinin işçilərinin say həddi cəmi 180 ştat vahidi olmaqla, Nazirliyin Aparatı üzrə 140 ştat vahidi, Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi üzrə 40 ştat vahidi müəyyən edilsin.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsini nəzərə alaraq **qərara alıram:**

1. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs yaradılsın.

2. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin (bundan sonra - İdarə) nizamnamə fondu 1 000 000 (bir milyon) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

4. Müəyyən edilsin ki:

4.1. İdarə tərəfindən dövlət əmlakının icarəyə verilməsindən alınan haqqın 50 (əlli) faizi dövlət büdcəsinə köçürülür, qalan hissəsi İdarənin sərəncamında qalır;

4.2. İdarənin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

4.3. İdarənin fəaliyyətinə rəhbərliyi həyata keçirmək üçün 3 (üç) üzvdən - sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti yaradılır.

5. İdarənin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.1.1. İdarənin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

5.1.2. İdarənin idarəetmə orqanlarının yaradılması;

5.1.3. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təqdimatı əsasında İdarə Heyəti sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.1.4. İdarənin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

5.1.5. İdarənin ləğvi və yenidən təşkili;

5.1.6. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün İdarənin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

5.2. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinə:

5.2.1. İdarənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

5.2.2. İdarənin inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqi;

5.3. İdarəyə:

5.3.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, İdarənin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi;

5.3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, İdarə Heyəti sədrinin müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. İdarənin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

6.5. Şuşa şəhərinin ərazisində yerləşən dövlət mülkiyyətində olan abidələrin, tikililərin (o cümlədən dövlət mənzil fonduna daxil olan tikililərin), yaşayış və qeyri-yaşayış sahələrinin, habelə şəhər avtomobil yollarının, şəhər mərkəzinin məhəllədaxili yollarının, küçələrin, keçidlərin, yol qurğularının və digər nəqliyyat infrastrukturunun üç ay müddətində İdarənin balansına verilməsini təmin etsin;

6.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi İdarənin fəaliyyətinə nəzarəti həyata keçirsin.

8. İdarə onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin;

9.2. İdarənin fəaliyyətinin təşkili və təmini üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

9.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi (bundan sonra - İdarə) Şuşa Şəhəri Dövlət Qoruğunun idarə edilməsini həyata keçirən, habelə Şuşa şəhərinin ərazisində yerləşən abidələrin bərpasının, qorunmasının, öyrənilməsinin, istifadəsinin və təbliğinin təmin edilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, sərəncamlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. İdarə bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. İdarənin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. İdarənin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. İdarə məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. İdarə Şuşa şəhərində yerləşir.

**2. İdarənin fəaliyyət istiqamətləri**

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Şuşa şəhərinin ərazisində (bundan sonra - müvafiq ərazidə) yerləşən abidələrin (bundan sonra - abidələr) həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin etmək;

2.1.2. Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğini təmin etmək;

2.1.3. müvafiq ərazidə mədəniyyət fəaliyyətini və mədəniyyət xidmətlərini təşviq etmək;

2.1.4. Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət (rekreasiya) potensialından tam yararlanmaq üçün əlverişli şərait yaratmaq.

**3. İdarənin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, müvafiq ərazidə İdarənin vəzifələri aşağıdakılardır:

3.1.1. abidələrin dövlət mühafizəsini və qorunmasını təşkil etmək;

3.1.2. abidələrin funksional təyinatına uyğun istifadə edilməsini, habelə tarixi-memarlıq və bədii-estetik görünüşünün toxunulmazlığını və uzunömürlülüyünü təmin etmək;

3.1.3. balansındakı dövlət mülkiyyətində olan abidələrin və tikililərin (o cümlədən dövlət mənzil fonduna daxil olan tikililərin), yaşayış və qeyri-yaşayış sahələrinin, habelə şəhər avtomobil yollarının, şəhər mərkəzinin məhəllədaxili yollarının, küçələrin, keçidlərin, yol qurğularının və digər nəqliyyat infrastrukturunun təyinatı üzrə səmərəli istifadəsini təmin etmək;

3.1.4. abidələrin mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə abidələrin qorunmasına dair mühafizə müqavilələri bağlamaq;

3.1.5. konservasiya mühafizə dərəcəsi olan daşınmaz mədəni sərvətlərdən məhdud dairədə istifadə olunmasına nəzarət etmək;

3.1.6. abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə verilmiş yazılı göstərişə əməl edilmədikdə, göstərişdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək və çəkilmiş xərcləri, habelə dəymiş zərərin əvəzini göstərişi icra etməmiş şəxslərdən tələb etmək;

3.1.7. abidələrin öyrənilməsi və arxeoloji qazıntılar aparılması üçün razılıq vermək;

3.1.8. arxeoloji qazıntılar aparılmasına nəzarət etmək;

3.1.9. xüsusi mülkiyyətdə olan abidələrin və ya onların hissələrinin elmi, mədəni, dini, xidmət və turizm məqsədləri ilə icarəyə (istifadəyə) verilməsi üçün onların istifadə məqsədlərini və xüsusiyyətlərini müəyyənləşdirən istifadə proqramına, uyğunlaşdırma və bərpa layihələrinə razılıq vermək;

3.1.10. yerli əhəmiyyətli abidələrin özəlləşdirilməsinə razılıq vermək;

3.1.11. dövlət mülkiyyətində olmayan abidələrin konservasiyasına, təmirinə, bərpasına, rekonstruksiyasına və regenerasiyasına razılıq vermək;

3.1.12. tarixi və arxeoloji əhəmiyyət kəsb edən ərazilərdə tikinti, bərpa, təmir və təsərrüfat işlərinin aparılması zamanı ərazidə İdarənin nümayəndəsinin iştirakını təmin etmək və bu zaman həmin ərazini əvvəlcədən nəzərdən keçirmək və abidələrin ilkin tədqiqini təmin etmək;

3.1.13. inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən arxeoloji abidə aşkar edildikdə dayandırılan işlərin davam etdirilməsi barədə qərar vermək;

3.1.14. aşkar edilmiş abidələrin siyahıya və dövlət qeydiyyatına alınmasını, pasportlaşdırılmasını həyata keçirmək və qorunması üçün tədbirlər görmək, onların əhəmiyyət dərəcəsi ilə bağlı və qorunma rejiminə dair təkliflər vermək;

3.1.15. abidələrin və tikililərin inventarlaşmasını aparmaq, texniki pasportlaşmanı həyata keçirmək;

3.1.16. tikintisinə icazə tələb edilən tikinti obyektlərinin layihələrinə abidələrin qorunması, istifadəsi, habelə tarixi-memarlıq və bədii-estetik görünüşünün toxunulmazlığı baxımından rəy vermək;

3.1.17. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, açıq məkanda reklam fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən reklam yerləşdirilməsinə icazə vermək, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklər edilməsinə, istismarına icazə vermək, habelə tikintisinə icazə tələb olunmayan reklam qurğularının quraşdırılması və sökülməsi qaydasına uyğun olaraq müvafiq tədbirlər görmək;

3.1.18. Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasında reklam yerləşdirilməsinə razılıq vermək;

3.1.19. abidələrə xələl gətirmədən turizm (rekreasiya) infrastrukturunun yaradılmasının təmin edilməsi üçün tədbirlər görmək, habelə maddi və qeyri-maddi mədəni irsin qorunmasına və təbliğinə dair məlumat mərkəzləri təşkil etmək;

3.1.20. yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının, konsert və musiqi festivallarının, sərgi və ekskursiyaların keçirilməsinə, sənədli və bədii filmlərin, televiziya verilişlərinin və reklam çarxlarının çəkilişinə razılıq vermək;

3.1.21. nəqliyyat infrastrukturunun, o cümlədən şəhərin hissələrinə giriş-çıxışın təşkilini həyata keçirmək;

3.1.22. mövcud yollarda və ya şəhərin mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaradarsa, həmin yollarda nəqliyyat vasitələrindən istifadəyə məhdudiyyət tətbiq etmək və ya bu cür istifadəni qadağan etmək;

3.1.23. Şuşa şəhərinin beynəlxalq mədəni əlaqələrinin inkişafı, habelə şəhərin dünya tarixi-mədəni irsinin incilərindən biri kimi nüfuzunun möhkəmləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.24. müvafiq ərazidə sahibkarlıq fəaliyyətinin canlanmasının və inkişafının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.25. elmi-tədqiqat, ənənəvi sənətkarlıq və digər məşğuliyyət növlərinin inkişaf və nümayiş etdirilməsi üçün tədbirlər görmək;

3.1.26. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və İdarənin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.27. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.28. müvafiq sahədə normativ hüquqi aktların və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.29. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.30. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.31. İdarənin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.32. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, İdarə əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.33. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.34. İdarəyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.35. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.36. İdarənin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.37. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.38. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.39. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün müvafiq ərazidə İdarənin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə yazılı göstərişlər vermək;

3.2.3. dövlət mülkiyyətində olan abidələr (dünya əhəmiyyətli abidələr istisna olmaqla) və ya onların hissələrini Şuşa şəhərinin Baş planına uyğun olaraq icarəyə (istifadəyə) vermək;

3.2.4. dövlət mülkiyyətində olan abidələrin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası barəsində qərar vermək;

3.2.5. mülkiyyətində, istifadəsində və ya icarəsində abidələrin olduğu fiziki və ya hüquqi şəxslər tərəfindən abidələrin qorunması və ya mühafizə müqavilələrinin şərtlərinə əməl edilməsi vəziyyətini yoxlamaq məqsədilə abidələrdə monitorinq keçirmək;

3.2.6. uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində turizm infrastrukturu obyektləri qurmaq və İdarənin ehtiyaclarının ödənilməsi məqsədilə yeni obyektlər layihələndirmək və inşa etmək;

3.2.7. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.8. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.9. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müvafiq xidmətləri göstərdiyinə (hüquqi hərəkətləri həyata keçirdiyinə) görə həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutmaq;

3.2.10. tutduğu dövlət rüsumunun "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən hissəsini əldə etmək;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar yaratmaq;

3.2.12. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.13. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.14. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.15. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.16. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.17. işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ixtisasartırma və digər istiqamətlərdə təlimlər təşkil etmək və İdarənin fəaliyyət istiqamətlərinə uyğun təlim və inkişaf üzrə ödənişli kurs xidmətləri göstərmək;

3.2.18. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, Azərbaycan Respublikası Prezidentinin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.19. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.20. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. İdarənin idarə olunması**

4.1. İdarə öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. İdarənin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. İdarə Heyəti İdarəyə rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi 3 (üç) üzvdən - İdarə Heyətinin sədrindən və onun 2 (iki) müavinindən ibarətdir. İdarə Heyətinin sədrini Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. İdarə Heyəti sədrinin müavinlərini İdarə Heyətinin sədri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinə təkliflər vermək və sənədlər (o cümlədən İdarənin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. İdarənin strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.3. İdarənin fəaliyyətinə nəzarət etmək;

4.5.4. İdarənin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikası Prezidentinin razılığı ilə təsdiq etmək, o cümlədən İdarənin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.5.5. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə İdarənin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin İdarənin nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.6. İdarənin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.7. İdarənin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.5.8. İdarənin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. İdarənin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin razılığı ilə İdarənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.12. aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.13. İdarənin fəaliyyətini təşkil etmək;

4.5.14. İdarənin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. bu Nizamnamənin 3.1.34-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.28-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda azı bir dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. İdarənin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. İdarənin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.6. İdarənin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.7. özünün və İdarənin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində İdarənin struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.10.9. İdarənin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.10.10. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, İdarənin, o cümlədən onun nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.10.11. İdarənin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.12. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində İdarənin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.13. İdarənin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.14. İdarənin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.15. İdarədə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.16. İdarədə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. İdarənin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. İdarənin nizamnamə fondunun məbləği 1 000 000 (bir milyon) manatdır.

5.2. İdarənin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. İdarə öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir, balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. İdarə qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra İdarənin, onun nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. İdarənin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. İdarə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri göstərdiyinə (hüquqi hərəkətləri həyata keçirdiyinə) görə həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutur.

5.7. İdarənin tutduğu dövlət rüsumunun "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən hissəsi İdarənin fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə onun hesabına köçürülür.

5.8. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-3-cü maddəsinə müvafiq olaraq İdarənin açıq məkanda reklam yayımına görə tutduğu haqqın məbləği dövlət tərəfindən tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

**6. İdarənin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. İdarənin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. İdarənin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. İdarədə uçot və hesabat**

7.1. İdarə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. İdarə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. İdarə nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. İdarə öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. İdarənin ləğvi və yenidən təşkili**

İdarənin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Birləşmiş Millətlər Təşkilatının Baş katibi zati-aliləri cənab Antonio Quterreşə

Hörmətli cənab Baş katib.

Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət daşıyır. Azərbaycan həm BMT-nin üzvü, həm də Qoşulmama Hərəkatının hazırkı sədri qismində təşkilatın qlobal çağırışlara qarşı mübarizəsini, dünya ictimaiyyətini narahat edən məsələlərdə fəal mövqeyini dəstəkləyir və bu işə öz töhfəsini verməyə davam edəcəkdir.

Əminəm ki, Sizin qarşıdakı fəaliyyətiniz bundan sonra da dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanmasında, beynəlxalq əməkdaşlığın təşviqində BMT-nin mühüm alət olaraq rolunun güclənməsinə xidmət edəcəkdir.

Bir daha Sizə səmimi təbriklərimi və xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, məsul işinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# N.M.Əliyevanın Bakı Slavyan Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nurlana Müzəffər qızı Əliyeva Bakı Slavyan Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# Azərbaycan-NATO əlaqələri uğurla inkişaf edir



İyunun 22-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun İzmirdə yerləşən Quru Qoşunları Komandanlığının Qərargah rəisi diviziya generalı Metin Tokelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Z.Həsənov Azərbaycan-NATO əlaqələrinin uğurla inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və hərbi qulluqçularımızın Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfəni diqqətə çatdırıb.

Müxtəlif sahələrdə aparılan Azərbaycan-NATO əməkdaşlığının əsas məqsədinin Avroatlantik məkanda, həmçinin dünya miqyasında vahid təhlükəsizlik sisteminin yaradılmasında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılması olduğunu qeyd edən müdafiə naziri bu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Diviziya generalı M.Tokel Alyansın Azərbaycanı etibarlı tərəfdaş hesab etdiyini xüsusi qeyd edib. O, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yükdaşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıblar.

# Baş nazir Əli Əsədov BƏƏ-nin iqtisadiyyat naziri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 22-də Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marri ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-BƏƏ iqtisadi-ticari əlaqələrinin genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Azərbaycan ilə BMT və onun qurumları arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



İyunun 22-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdəki diplomatik fəaliyyəti başa çatan BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə əlaqədar görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Qulam İshaqzainin ölkəmizdəki uğurlu fəaliyyətini, BMT ilə Azərbaycan arasındakı əməkdaşlığın inkişafına verdiyi töhfəni məmnunluqla qeyd edib.

Qulam İshaqzai Azərbaycanda fəaliyyəti dövründə ona göstərilən dəstəyə görə təşəkkür edib, əməkdaşlığın uğurla həyata keçirildiyini vurğulayıb. Rezident əlaqələndirici xüsusilə Azərbaycanla yeni Əməkdaşlıq Fəaliyyət Planının imzalandığını məmnunluqla qeyd edib.

Tərəflər Azərbaycan ilə BMT və onun qurumları arasında həyata keçirilən əməkdaşlıq imkanlarını və perspektivlərini müzakirə ediblər.

Nazir işğaldan azad olunmuş ərazilərdəki vəziyyətə toxunaraq, ölkəmizin həm UNESCO, həm də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) missiyasının bu ərazilərdə qəbul etməyə hazır olduğunu bildirib. Hazırda səfərlə əlaqədar işlərin yekunlaşdırılması üçün hər iki təşkilatdan cavab gözlənildiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Ceyhun Bayramov BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzaiyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan və Misir XİN-ləri arasında siyasi məsləhətləşmələr aparılıb

İyunun 20-də Qahirə şəhərində Azərbaycan Respublikası və Misir Ərəb Respublikasının Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələrdə Misir tərəfini xarici işlər nazirinin müavini səfir Badr Abdelatti, Azərbaycan tərəfini isə xarici işlər nazirinin müavini Fariz Rzayev təmsil ediblər.

Görüşdə iki ölkə arasındakı münasibətlərin hazırkı vəziyyəti, habelə ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişafı yolları müzakirə olunub. Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və qlobal xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

Azərbaycan tərəfi münaqişədən sonra bölgədə mövcud vəziyyət, o cümlədən azad olunmuş ərazilərdə bərpa, quruculuq, reinteqrasiya işləri barədə məlumat verib.

**◆ Milli Məclisin iclasında**

# Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini yeni səviyyəyə yüksəltdi





*Əvvəli 1-ci səh.*

İclasda cari məsələlər müzakirə olunub. Çıxış edən komitə sədrləri Zahid Oruc, Tahir Rzayev, deputatlardan Fazil Mustafa, Aydın Mirzəzadə, Fəzail Ağamalı, Aqiyə Naxçıvanlı, Elşən Musayev, Eldəniz Səlimov, Cavid Osmanov və Tural Gəncəliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri, Şuşa Bəyannməsi və seçiciləri narahat edən məsələlər barədə fikirlərini bildiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Parlamentin Sədri diqqətə çatdırıb ki, gündəlikdə 14 məsələ var. İlk 7 məsələ üçüncü oxunuşda olan qanun layihələridir və Milli Məclisə eyni zərfdə daxil olub. Bu qanun layihələri mahiyyətcə bir-birinə yaxındır və əlilliyin təyinatında yeni meyarların tətbiqi ilə əlaqədar 60 qanunda dəyişiklik edilməsini nəzərdə tutur.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna və digər əlaqədar qanunlara dəyişiklikləri üçüncü oxunuşda diqqətə çatdırıb. Bildirib ki, bu qanun layihələri Milli Məclisin Sədri Sahibə Qafarovanın tapşırığı ilə Əmək və sosial siyasət komitəsinin iclasında geniş müzakirə olunub. Müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Sədr müavini Adil Əliyev, əlaqədar komitələrin sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və müvafiq nazirliyin nümayəndələri iştirak ediblər. Müzakirələr zamanı bütün suallara aydınlıq gətirilib, bəzi təkliflər nəzərə alınıb.

Deputatlardan Razi Nurullayevin və Tahir Kərimlinin fikirləri dinlənildikdən sonra komitə sədri Musa Quliyev deputatların söylədikləri fikirlərə münasibət bildirib.

Gündəliyin 7 məsələsi - "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə; "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə; Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Məcəllədə, Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında; "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanun, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Psixiatriya yardımı haqqında", "İcbari sığortalar haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Dövlət qulluğu haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa əsasən, gündəliyin növbəti iki məsələsi bir oxunuşda qəbul olunacaq.

Sonra mahiyyətcə bir-birilə bağlı olan "Ailə kəndli təsərrüfatı haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məlumat verib. Bildirib ki, hər iki qanuna təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakterlidir və Elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi ilə bağlıdır.

Qanun layihələri barədə komitə sədri Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Rüfət Quliyev fikirlərini bildirdikdən sonra layihələr ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Gündəliyin 10-cu məsələsini - "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsini birinci oxunuşda Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov təqdim edib.

Bildirib ki, qanun layihəsinin hazırlanmasında beynəlxalq təcrübədən istifadə edilib. Hazırda ölkəmizdə bu sahədə qüvvədə olan qanunun qəbulundan 25 il keçib və həmin qanun müasir tələblərə qismən cavab verir. Bu baxımdan yeni qanunun hazırlanmasını ictimai sifariş kimi də qiymətləndirmək olar. Yeni qanun qəbul edildikdən sonra enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edəcək, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin fəaliyyətini və onlar arasında yaranan münasibətləri tənzimləyəcək.

8 fəsil 23 maddədən ibarət olan qanun layihəsi enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin məqsədlərini, enerji effektivliyi üzrə xidmətlərin təşkili və təşviqinə dair məqamları, istehlak olunan enerjinin hesablanması, istehsalı, saxlanması, ötürülməsi, paylanması, təchizatında səmərəlilik və digər məsələləri özündə ehtiva edir.

Müzakirələrdə çıxış edən deputatlar Vahid Əhmədov, Etibar Əliyev, Fəzail Ağamalı, Sahib Alıyev, Rüfət Quliyev, Asim Mollazadə və Əziz Ələkbərov qanun layihəsini yüksək qiymətləndiriblər, qeyd və təkliflərini bildiriblər. Komitə sədri Sadiq Qurbanov sualları cavablandırdıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin növbəti iki məsələsi də mahiyyətcə bir-biri ilə bağlı olduğuna görə "Əmək pensiyaları haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlara dəyişiklik edilməsi barədə qanun layihələrinin birinci oxunuşu haqqında Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Bildirib ki, hər iki dəyişiklik əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutur.

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Əli Məsimli, Aydın Mirzəzadə, Fəzail Ağamalı çıxış edərək təklif olunan dəyişikliklər barədə fikirlərini bildiriblər.

Komitə sədri Musa Quliyev deyilən fikirlərə münasibət bildirdikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda "Əmək pensiyaları haqqında" Qanuna təklif olunan dəyişiklik də səsə qoyularaq birinci oxunuşda təsdiqlənib. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, bu qanun da gündəliyin sonuncu məsələsi ilə mahiyyətcə bir-birinə yaxındır və dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutur.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin sonuncu məsələsini - "Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, bu layihə bundan əvvəl Musa Quliyevin təqdim etdiyi dəyişikliklərlə üzvi surətdə bağlıdır və həmin dəyişikliklər bu layihədə də öz əksini tapmalıdır.

Deputat Etibar Əliyevin layihə barədə fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan ilə Pakistan hərbi nümayəndə heyətlərinin görüşü keçirilib

Moskvada keçirilən IX Beynəlxalq Təhlükəsizlik Konfransı çərçivəsində iyunun 22-də Azərbaycan Respublikasının müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Pakistan İslam Respublikasının müdafiə nazirinin müavini general-leytenant Mian Muhəmməd Hilal Hüseynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər hər iki ölkənin orduları arasında əlaqələrin daha da genişləndirilməsi məsələlərini müzakirə edib, hərbi əməkdaşlığın əsas istiqamətlərinə dair fikir mübadiləsi aparıblar.

# Azərbaycanla Pakistan arasında münasibətlər ortaq tarixi irsə, ənənələrə və maraqlara söykənir



İyunun 22-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev ilə görüşüb.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, Xidmətin aparatında keçirilmiş rəsmi qarşılanma mərasimindən sonra ordu generalı Qamar Caved Bacva "Fəxri qonaqlar kitabı"na ürək sözlərini yazıb.

Geniş tərkibdə keçirilmiş görüşdə DSX-nin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ortaq tarixi irsə, ənənələrə və maraqlara söykənən münasibətlərin bütün istiqamətlərdə, o cümlədən sərhəd təhlükəsizliyi sahəsində uğurla inkişaf etdiyini vurğulayıb. Xidmət rəisi 2018-ci ildə Pakistana səfəri zamanı Dövlət Sərhəd Xidmətinin nümayəndə heyətinə Pakistanın ordu rəhbərliyinin nümayiş etdirdiyi diqqət və yüksək qonaqpərvərliklə bağlı xoş xatirələrini bölüşüb.

Söhbət zamanı 30 ilə yaxın müddətdə milli və sərhəd təhlükəsizliyinə əsas təhdid olmuş ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin Ermənistan tərəfindən işğalına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Vətən müharibəsində qazanılmış parlaq Qələbə sayəsində son qoyulduğu, hazırda azad edilmiş ərazilərimizdə dövlət sərhədinin mühafizəsi üzrə fəaliyyətlərin təşkili, zəruri infrastrukturun yaradılması istiqamətində görülən işlər barədə məlumat verilib, ərazi bütövlüyünün bərpası uğrunda Azərbaycanın ədalətli mübarizəsində Pakistan İslam Respublikasının hər zaman göstərdiyi dəstək və həmrəylik xüsusi qeyd edilib.

Ordu generalı Qamar Caved Bacva Vətən müharibəsində qazanılmış Qələbə münasibətilə təbriklərini ifadə edib, işğaldan azad olunmuş dövlət sərhədlərinin mühafizəsi üzrə zəruri infrastrukturun yaradılması, ərazilərin minalardan təmizlənməsi sahəsində Pakistan tərəfinin öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirib.

Görüşdə tərəflər sərhəd mühafizəsi sahəsində birgə əməkdaşlıq fəaliyyətlərinin davam etdirilməsi, qarşılıqlı səfərlərin təşkili, maraq kəsb edən istiqamətlər üzrə müsbət təcrübə mübadiləsinin həyata keçirilməsinə dair fikir mübadiləsi aparıblar.

***AZƏRTAC***

# YAP Həmkarlar İttifaqı Komitəsinin növbədənkənar hesabat-seçki yığıncağı keçirilib



İyunun 22-də Yeni Azərbaycan Partiyası (YAP) Həmkarlar İttifaqı Komitəsinin növbədənkənar hesabat-seçki yığıncağı keçirilib.

Yeni Azərbaycan Partiyasının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yığıncaqda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov YAP Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn Paşayevin başqa işə keçməsi ilə əlaqədar növbədənkənar hesabat-seçki yığıncağının keçirilməsinə zərurətin yarandığını bildirib, H.Paşayevə Mərkəzi Seçki Komissiyasının üzvü kimi gələcək fəaliyyətində uğurlar arzu edib.

Sonra yığıncağın gündəliyi təsdiq olunub. İlk olaraq, Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin ötən dövr ərzindəki fəaliyyətinə dair hesabat dinlənilib. Hesabatı təqdim edən YAP Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn Paşayev bildirib ki, təşkilat ötən dövr ərzində Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyası və Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı ilə sıx əməkdaşlıq edib. YAP Həmkarlar İttifaqı Komitəsi iş planına uyğun olaraq müxtəlif xarakterli tədbirlərin həyata keçirilməsini təmin edib, eyni zamanda işçilərin sosial müdafiəsinin və istirahətinin təmin olunması istiqamətində müvafiq addımlar atıb. Bununla belə, koronavirus pandemiyası səbəbindən 2020-ci ildə nəzərdə tutulan tədbirlərin tam reallaşdırılması mümkün olmayıb.

Yığıncaqda daha sonra Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin Təftiş komissiyasının sədri Mahir Abbasəliyevin hesabatı dinlənilib.

Hər iki hesabatın müzakirəsi zamanı yığıncaq iştirakçılarından Misirxan Vəliyev, Bəhruz Quliyev, Məhəmməd Məhərrəmov və Zəkiyə Musayeva çıxış edərək Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin ötən dövr ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Müzakirələrin yekunu olaraq Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Yığıncaqda çıxış edən Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin nümunəvi təşkilatlardan biri olduğunu bildirib. Qeyd edilib ki, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı bundan sonra da işçilərin əmək və sosial hüquqlarının təmin olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsi ilə sıx əməkdaşlıq edəcək.

Yığıncaqda daha sonra təşkilati məsələlərə baxılıb. YAP Həmkarlar İttifaqı Komitəsinin 11, Təftiş komissiyasının isə 5 nəfərdən ibarət tərkibi müəyyənləşib.

Partiyanın Mərkəzi Aparatının Maliyyə-təsərrüfat şöbəsi müdirinin müavini Qara Qarakişiyev YAP Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.

Yığıncaqda həmçinin YAP Həmkarlar İttifaqının daimi komissiyaları formalaşdırılıb.

# Vilayət EYVAZOV: "Azərbaycanın və Pakistanın Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlıq mövcuddur"

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 22-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir strateji müttəfiqlər olan iki dövlət arasında əlaqələrin zəngin tarixə və dərin köklərə malik olduğunu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu münasibətlərin möhkəm təməllər üzərində qurulmasına hər zaman xüsusi önəm verdiklərini məmnunluqla qeyd edib.

General-polkovnik Vilayət Eyvazov qonağa ölkəmizdəki mövcud kriminogen durum, həyata keçirilən islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilən nəticələr barədə qısa məlumat verib.

İki ölkənin Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlığa söykənən ikitərəfli münasibətlərin mövcudluğunu diqqətə çatdıran nazir V.Eyvazov imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, narkotiklərin qanunsuz dövriyyəsi ilə və xüsusilə insan alverinə qarşı mübarizədə birgə səylərin göstərildiyini, əməliyyat məlumatlarının mübadilə olunduğunu da bildirib. O, eyni zamanda, hüquq mühafizə orqanları arasında əməkdaşlıq əlaqələrinin Beynəlxalq Kriminal Polis Təşkilatı (İnterpol) çərçivəsində də uğurla həyata keçirildiyini və DİN-in Daxili Qoşunları ilə Pakistanın Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatı arasında hərbi maddi-texniki sahədə yaradılmış əlaqələrin uğurla davam etdirildiyini vurğulayıb.

Yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə təşəkkür edən ordu generalı Qamar Caved Bacva dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu önə çəkərək xüsusilə son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan məmnunluğunu bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Pakistanın Quru Qoşunlarının komandanı ilə görüşüb

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev ilə ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacva arasında görüş keçirilib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, görüşdə general-polkovnik Əli Nağıyev ölkəmizdə sabitliyin və təhlükəsizliyin gücləndirilməsi istiqamətində görülən işlər barədə qonağa məlumat verib, dünya düzəninə əsas təhdidlərdən olan beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa və digər bu kimi mənfi təzahürlərə qarşı mübarizədə hər iki ölkənin aidiyyəti dövlət strukturlarının göstərdiyi qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə edib.

Qeyd olunub ki, ali rəhbərlərin birgə səyləri nəticəsində ölkələrimiz arasında etibarlı tərəfdaşlıq və səmimi dostluq münasibətləri qurulub, təhlükəsizliyə və sabitliyə mümkün risklərə qarşı mübarizə istiqamətində sıx əməkdaşlığın yaradılması üçün əhəmiyyətli addımlar atılıb və son zamanlar tərəflər arasında təmaslar daha intensiv xarakter alıb.

Qırx dörd günlük Vətən müharibəsində qardaş Pakistan dövlətinin və xalqının Azərbaycanın haqlı və ədalətli mövqeyinə göstərdiyi birmənalı dəstəyi xüsusi vurğulayan Xidmət rəisi ölkələrin müvafiq təhlükəsizlik orqanları arasında olan münasibətlərin səviyyəsindən razılığını bildirərək bu əlaqələrin genişləndirilməsi və daha da inkişaf etdirilməsi üçün belə müntəzəm səfərlərin vacibliyini qeyd edib.

Səmimi qarşılanmaya və qonaqpərvərliyə görə minnətdarlığını çatdıran ordu generalı Qamar Caved Bacva bu görüşlərin tərəfdaşlıq münasibətlərinin güclənməsinə və dərinləşməsinə xidmət etdiyini, hər iki dövlətin maraq və mənafelərinin etibarlı qorunması, sülh və sabitliyin təmin olunması istiqamətində görülən işlərin, aparılan müzakirələrin mövcud əlaqələrin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Görüşdə qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi, gələcək əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# ABŞ-ın "Vicdana çağırış" Fondunun prezidenti Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndirib

İyunun 21-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ABŞ-ın nüfuzlu "Vicdana çağırış" Fondunun prezidenti Ravvin Artur Şnayerlə videoformatda görüşüb.



İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, QMİ sədri və fondun rəhbəri arasında onlayn görüş zamanı müasir dövrdə dinlərarası dialoqa dair bir sıra məsələlərə toxunulub. Dünya müstəvisində dinlərarası dialoqun yeni reallıq və çağırışları, perspektiv və imkanları müzakirə olunub.

Ünsiyyət zamanı Ravvin A.Şnayer Azərbaycanın qalibiyyətli Vətən müharibəsinə toxunaraq, bölgədə sülhün bərqərar olmasını böyük nailiyyət kimi təqdir edib. Zamanında bu münaqişənin sülh yolu ilə həllini tapması üçün Şeyxülislam A. Paşazadə ilə birgə səylərini xatırlayan Ravvin A.Şnayer rəhbərlik etdiyi fondun yerləşdiyi Nyu York şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə keçirdiyi görüşləri böyük rəğbətlə yada salıb.

Dini liderlər olaraq həm özünün, həm də Şeyxülislam A. Paşazadənin Uca Yaradan qarşısında mənəvi missiyasının sülhə xidmət olduğunu vurğulayan Ravvin A. Şnayer bundan sonra da Azərbaycan və Ermənistanın dini liderləri arasında dialoq müstəvisinin davam etməsinin vacibliyinə diqqəti çəkib. Bu istiqamətdə hər zaman vasitəçi olmağa hazır olduğunu bildirən və bunun üçün səylərini əsirgəməyəcəyini qeyd edən Ravvin A. Şnayer dünyada, bölgədə əmniyyət və sabitlik üçün belə dialoqların zəruri olduğunu bildirib.

QMİ sədri A. Paşazadə öz növbəsində Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında erməni vandalizminin acı nəticələri, dini məbədlərə - məscidlər və kilsələrə qarşı dağıntı və həqarət faktlarının miqyası barədə həmsöhbətini ətraflı məlumatlandırıb. Dağıdılmış şəhər və kəndlərin, mənəvi məkanların tezliklə bərpası ilə bağlı nəzərdə tutulan genişmiqyaslı quruculuq işləri barədə Azərbaycanın dövlət başçının qətiyyətli iradəsinə istinad edərək QMİ sədri A. Paşazadə əminliyini bildirib ki, Azərbaycanın azad olunmuş Qarabağ torpaqları ən qısa zamanda öz yeni, gözəl görkəmi ilə yenidən canlanacaqdır. Şeyxülislam A. Paşazadə vurğulayıb ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək mənəvi dəyərlərin hamisi olduğuna, Azərbaycanda xristian və yəhudi dini abidələrinə ənənəvi olaraq diqqət və qayğı ilə yanaşılmasına bütün dünya şahiddir. QMİ sədri azad edilmiş ərazilərdə məscidlərlə yanaşı, xristian və yəhudi dini-mənəvi abidələrinə diqqət ayrılmasının Azərbaycanın dünyadakı tolerant imicinin, mədəniyyətlər, sivilizasiyalar, dinlərarası dialoq prosesində aparıcı mərkəzlərdən olmasının daha bir təsdiqidir.

Videogörüş çərçivəsində ünsiyyətə görə təşəkkürünü bildirən fondun prezidenti A.Şnayer öz növbəsində Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndirdiyini qeyd edib. "Vicdana çağırış" Fondunun prezidenti Ravvin Artur Şnayer səmimi salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı QMİ sədrindən xahiş edib. Ravvin A. Şnayer Azərbaycan Prezidenti İlham Əliyevin payızda baş tutacaq BMT sessiyasına təşrif buyuracağı təqdirdə, onunla Nyu Yorkda görüşmək niyyətini ifadə edib.

# Birgə taktiki-xüsusi təlim keçirilib

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən 21-23 iyun tarixlərində Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə birgə taktiki-xüsusi təlimi keçirilir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təlimi izləyib.

Təlimdən əvvəl Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev "Bayraktar-TB2" silahlı pilotsuz uçuş aparatının təqdimata hazırlığı barədə raport verdikdən sonra uçuşa hazır olan "Bayraktar-TB2" silahlı pilotsuz uçuş aparatına və döyüş raketlərinə, aparatın saxlanma imkanlarına baxış keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasında pilotsuz uçuş aparatı sistemləri kursunu müvəffəqiyyətlə bitirən zabit və gizir heyəti ilə görüşüb, xatirə şəkli çəkdirilib.



Pilotsuz uçuş aparatının taktiki-texniki xassələri haqqında məlumat verilərək bildirilib ki, aparatın kompleksinə müxtəlif növ idarəolunan raketlər daxildir. "Bayraktar-TB2" silahlı pilotsuz uçuş aparatının uçuşlarını təmin edən qüllə, antenaların taktiki-texniki xassələri haqqında məlumat verilib, silahlı pilotsuz uçuş aparatının uçuşa hazırlanması və uçuşu, "Bayraktar-TB2" silahlı pilotsuz uçuş aparatının praktiki uçuşların idarəedilməsi izlənilib, yerüstü nəzarət və idarəetmə stansiyası təqdim olunub.

Ali Məclisin Sədri qoşunların idarə edilməsini təmin edən rabitə vasitələrinə və döyüş raketlərinin saxlanılma anbarına baxıb, ultraqısa və qısa dalğalı radiostansiyalar dəsti, döyüşü idarəetmə qrupunun iş yeri, kompleks və mobil rabitə stansiyaları, döyüşü idarəetmə və komanda-qərargah maşınları ilə tanış olub.

Daha sonra Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun Mərkəzi Qərargahında Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə birgə keçirilən taktiki-xüsusi təliminin praktiki fəaliyyətlərinin icrasını izləyib.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev təlimin praktiki fəaliyyətlərinin icrasının hazırlığı barədə raport verib, döyüşü idarəetmə mərkəzi haqqında məlumat verib.

Ali Məclisin Sədri zabit heyətini salamlayıb.

Planla tanışlıqdan sonra təlimə start verilib.

Ali Məclisin Sədri Coğrafi Analiz Sisteminin yaradılmasına görə heyətə təşəkkür edib.

Sonra "Qarabağlar Dağ" təlim mərkəzində keçirilən artilleriya batareyasının taktiki təlimində atəş mövqeyini tutmaq üçün hərəkətdə olan batareyanın düşmənin artilleriya atəşinə məruz qaldıqda göstərəcəyi praktik fəaliyyəti izlənilib. Düşmənin müdafiə dərinliyimizə sızıb keçmiş kəşfiyyat diversiya qrupunun Daxili Qoşunların Əlahiddə Əməliyyat Briqadasının bölmələrinin pilotsuz uçuş aparatının köməyi ilə aşkar və məhv edilməsi üçün qarşılıqlı əlaqədə fəaliyyəti icra olunub.

Sonra Ali Məclisin Sədri qərar qəbul edilmə, görüntü izləmə otaqlarına baxıb.

# "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimi başlayıb



Türkiyə Respublikasının Konya şəhərində "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimləri başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin ilkin mərhələsində Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş heyəti şərti düşmənin hava məkanına daxil olaraq yer hədəflərinin məhv edilməsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Təlim iyulun 3-dək davam edəcək.



# Mariya Peyçinoviç BURİÇ: "Mina xəritələrinin verilməsi insanların öz evlərinə qayıtmasını sürətləndirəcək"

*"Azərbaycan ilə Ermənistan arasında 15 erməninin mina xəritələri müqabilində dəyişdirilməsini yüksək qiymətləndiririk. Münaqişə bölgəsindən olan bir şəxs kimi deyə bilərəm ki, minaların fəsadları 50 il, bəzən daha uzun davam edir, uşaqların, günahsız insanların həyatına son qoyur. Əlbəttə, saxlanılan şəxslərin taleyi hər kəs üçün narahatlıq doğurur. Amma biz mina xəritələrini də unutmamalıyıq. Bu xəritələrin verilməsi və minaların təmizlənməsi insanların öz evlərinə qayıtmasını sürətləndirəcək. Buna görə də mən tərəflər arasında həyata keçirilmiş bu razılaşmanı dəstəkləyirəm və gələcəkdə də bu cür razılaşmaların olacağına ümid edirəm".*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Şurası Parlament Assambleyasının sessiyası çərçivəsində Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç Azərbaycanın qurumdakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun sualına cavabında ifadə edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Baş katibə sualla müraciət edərək soruşub: "2020-ci il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoyaraq, bölgəmizdə davamlı sülh üçün nadir fürsət oldu. İndi hər iki ölkənin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə qarşılıqlı hörmət əsasında beynəlxalq aktorların Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına və etimadın qurulmasına dəstək verməsi vacibdir. Bu baxımdan, Avropa Şurasının iki üzv dövlət arasında barışığın təşviqi üçün hansı addımlar atacağını bilmək istərdim".

# Deputat: "Azərbaycanlı jurnalistlərin erməni minasının qurbanı olması media azadlığına hücum kimi qiymətləndirilməlidir"

Cari il iyunun 4-də Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda peşə fəaliyyətini yerinə yetirən iki jurnalist ermənilər tərəfindən basdırılmış minanın qurbanı oldular. Jurnalistlərin həyatı üçün təhlükəli olan belə hadisələr media azadlığına hücum kimi başa düşülməli və kəskin şəkildə pislənilməlidir. Çünki sərbəst hərəkət və təhlükəsiz iş obyektiv məlumatların çatdırılması üçün ilk şərtdir.

Müxtəlif ölkələrin media strukturları arasında məlumat mübadiləsi informasiya hüququ ilə yanaşı, media azadlığının təmin olunmasında vacib elementdir. Bu, informasiya məkanının bağlanmasının, eləcə də məlumatın siyasi təcridinin qarşısını alır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞ PA-da "Media azadlığı, ictimai etibar və vətəndaşların bilmək hüququ" adlı məruzənin təqdimatı və onun ətrafında müzakirələr zamanı Azərbaycan nümayəndə heyətinin üzvü Fazil Mustafa deyib.

Deputat bildirib ki, məruzədə qeyd olunduğu kimi, media azadlığı, eləcə də insanların məlumat almaq hüququ konstitusiyalarda təsbit edilmiş əsas insan azadlıqları ilə əlaqələndirilir. Beynəlxalq sənədlərdə, yerli qanunvericilikdə azadlığa nəzarət etmək hüququnu təmin edəcək və dəstəkləyəcək normalar mövcuddur.

F.Mustafa qeyd edib ki, media azadlığı iqtisadi azadlıqla başlayır. Media iqtisadiyyatı adlanan fenomenin bazar iqtisadiyyatı sistemində istiqamətləndirici xarakter alması artıq dünya həqiqətidir. Dövlət və özəl sektorun reklam sifarişləri medianın müstəqilliyinin təminatı kimi qəbul edilə bilər. Fərqli ölkələrdə reklam bazarının səviyyəsi medianın inkişaf səviyyəsini də müəyyənləşdirir. İnternet dövründə yazılı medianın çevikliyini itirməsi internet medianın fəaliyyət sahəsini genişləndirir.

Deputat mediada peşəkarlığın, eləcə də məlumatın etibarlılığı və alıcının məlumatı düzgün həzm etməsi qabiliyyətinin vacibliyinə də toxunub.

# Azərbaycan Prokurorluğu korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirir

Avstriyanın paytaxtı Vyanada BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının (UNCAC) icrası üzrə Nəzarət Qrupunun görüşü və Korrupsiyanın qarşısının alınması üzrə Açıq Hökumətlərarası İşçi Qrupunun 12-ci iclası keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, BMT-nin nümayəndələrinin, ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Çin və UNCAC-a tərəf olan digər dövlətlərin təmsilçilərinin də qatıldıqları tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyəti qismində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları iştirak ediblər.

Tədbirdə "Korrupsiyaya qarşı mübarizə aparan qurumların səlahiyyətlərinin genişləndirilməsi", "Rüşvətxorluğa qarşı mübarizədə əldə olunan müsbət təcrübə" və digər mövzularda geniş fikir mübadiləsi aparılıb.

Azərbaycan Prokurorluğunun nümayəndəsi tədbir iştirakçılarına COVID-19 pandemiyası ilə əlaqədar törədilmiş hüquqpozmalar barədə müraciətlərə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində baxılması təcrübəsi, hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun tətbiqi vəziyyəti, eləcə də digər yeniliklər barədə də ətraflı məlumat verib.

# Qarabağ bir millət, iki dövlətin Zəfər meydanıdır

*Əvvəli 1-ci səh.*



## BİRLİK və HƏMRƏYLİYİN ZƏFƏRİ və ZİRVƏSİ

Ümumiyyətlə, dünya ölkələri, xüsusən də türk dünyası üçün örnək olan bu sarsılmaz birlik İkinci Qarabağ-Vətən müharibəsində daha da qabarıq şəkildə ifadə olunmuş və möhkəmlənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Türkiyə Cümhuriyyəti ilə münasibətlər bərabərhüquqlu qardaşlıq və əməkdaşlıq səviyyəsinə çatmışdır. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da ölkələrimiz arasında çoxcəhətli əlaqələrin daha da inkişaf etdirilməsi sahəsindəki qarşılıqlı addımları Azərbaycan-Türkiyə birliyinin inkişaf etdirilməsinə öz töhfəsini vermişdir. Hazırda Azərbaycan-Türkiyə əlaqələri XXI əsrin ən mükəmməl Birlik və Həmrəylik modelinə çevrilmişdir.

Fikrimcə, 15 iyun 2021-ci ildə Milli Qurtuluş Günü Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” görkəmli dövlət xadimləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin möhkəm dövlətçilik və cəmiyyət həyatının bütün sahələri üzrə Birlik ideallarının işığında parlaq şəkildə ifadə edilmiş ən mötəbər dövlət sənədidir. Bu, özünün strateji xarakterinə, siyasi-hərbi və iqtisadi əhəmiyyətinə görə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında son 30 ildə imzalanmış dövlətlərarası sənədlərin hamısının birlikdə yekunu və ümumiləşdirilmiş ifadəsi olmaqdan başqa, həm də bundan sonrakı bütün dövrlər üçün xalqlarımızın ortaq taleyini və birgə fəaliyyətini müəyyən edən xüsusi bir doktrinadır.

“Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyətinin Birlik, Həmrəylik və Əməkdaşlıq manifestidir.

Şuşa Bəyannaməsi Türkiyə və Azərbaycan arasında ayrı-ayrı zəruri və əhəmiyyətli sahələrdə deyil, bütün istiqamətlər üzrə həmrəylik və əməkdaşlığın, ortaq birgə fəaliyyətin strategiyası və taktikasıdır.

Şuşa Bəyannaməsinin preambula hissəsindəki “ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək” sözləri və eyni zamanda “müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək” müddəaları müstəqillik münasibətləri haqqında müqavilənin miqyasını, əhatə dairəsini nümayiş etdirir.

Azərbaycanın və Türkiyənin strateji reallıqlarını və hədəflərini ifadə edən Şuşa Bəyannaməsi siyasi dillə ifadə olunan Birlik və Əməkdaşlıq marşıdır.

Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə üçün ortaq təhlükəsizlik haqqında birgə fəaliyyət proqramıdır.

“Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannamə”sində öz əksini tapmış aşağıdakı müddəalar Azərbaycan və Türkiyə dövlətlərinin ortaq taleyinin və maraqlarının hərbi cəhətdən birlikdə müdafiə olunmasının qarantı kimi səslənir: “Tərəflərdən hər hansı birinin fikrincə onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və təcavüz edildiyi təqdirdə Tərəflər bir-birlərinə... BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər... Birgə tədbirlərin görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərində mətbuat konfransındakı bəyanatında müdafiə və hərbi sahədə Türkiyə Cümhuriyyəti ilə birgə fəaliyyətin təmin edilməsini müttəfiqlik münasibətləri haqqında müqavilənin xüsusi əhəmiyyətə malik olan əsas müddəalarından biri kimi qiymətləndirmişdir. Birincisi, müdafiə sahəsində əməkdaşlıq, işbirliyi məsələsidir. Müdafiə sənayesi sahəsində və qarşılıqlı hərbi yardım məsələləri bu bəyannamədə öz əksini tapıb. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik. Necə ki bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da belə olacaqdır.



“Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi”ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İkinci Qarabağ-Vətən müharibəsindəki qələbəmizdən sonra yaratdığı yeni reallıqlardan biri də Zəngəzur dəhlizinin açılması ilə əlaqədar yer almış müddəadır. Bu, müqavilənin həm region, həm də beynəlxalq birlik üçün mühüm əhəmiyyətə malik olmasının əsas göstəricilərindən biridir.

Şuşa Bəyannaməsi bolşeviklərin hələ sovet hakimiyyəti qurulmamışdan əvvəl - 28 oktyabr 1920-ci il tarixdə zorla və ədalətsiz şəkildə Azərbaycandan qopararaq daşnak Ermənistanının ərazisinə qatdığı Zəngəzur bölgəsinin kommunikasiya baxımından regionda yaratdığı problemlərin müasir dövrdə aradan qaldırılmasına hüquqi baxımdan təkan verir. Bu bəyannamə Zəngəzur dəhlizinin açılması üçün Azərbaycan və Türkiyə dövlətlərinin birgə siyasi iradəsini meydana qoyur. Şuşa Bəyannaməsindəki aşağıdakı müddəalar Zəngəzur dəhlizinin əhəmiyyətini nəzərə çatdırmaqla bərabər, onun reallaşacağına da nikbin baxmağa əsas yaradır: “Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının Qərb regionları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasına və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə töhfə verəcəyini qeyd edirlər”.

Bu isə öz növbəsində illərdən bəri haqqında söhbət gedən Naxçıvan-Qars dəmir yolunun çəkilişinin də real olaraq gündəmə gətirilməsi və Zəngəzur dəhlizinin Bakı-Tbilisi Qars dəmir yolu ilə birləşdirilməsi deməkdir. Beləliklə, Şuşa Bəyannaməsinin işığında dünya ölkələrinin böyük maraq göstərdiyi Zəngəzur dəhlizinin yeni beynəlxalq nəqliyyat qovşağına çevrilməsi məsələsi həll ediləcəkdir.

Bütün bunlara əsasən daşıdığı siyasi əhəmiyyətinə, beynəlxalq miqyasına, tərkibindəki hərbi və iqtisadi müttəfiqlik haqqında olan mühüm müddəalarına və nəhayət, uzunmüddətli, daha doğrusu, müddətsiz, əbədi xarakterə malik olmasına görə “Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” haqlı olaraq bundan yüz il əvvəl, 13 oktyabr 1921-ci il tarixdə Türkiyənin Qars şəhərində imzalanmış Qars müqaviləsi ilə müqayisə edilir.

Əlbəttə, Qars müqaviləsi Rusiyanın iştirakı ilə bir neçə dövlət - Azərbaycan, Ermənistan və Gürcüstanla Türkiyə arasında bağlanmış müqavilə olduğu, beynəlmiləl xarakter daşıdığı üçün “Dostluq Müqaviləsi” adlandırılmışdır. Qars müqaviləsi ilə imzalandığı tarixi dövrdə çox mühüm olan Cənubi Qafqaz respublikaları arasında ərazi və sərhəd mübahisələrinə son qoyulmuş, Türkiyə ilə münasibətlər tənzimlənmiş, qarşılıqlı etimad və əməkdaşlıq üçün real təminat əldə olunmuşdur.

Bununla belə, “Dostluq Müqaviləsi” adlandırılmasına və geniş mənada Cənubi Qafqaz respublikalarına dair mühüm müddəaları əhatə etməsinə baxmayaraq, Qars müqaviləsinin mətnində bir sıra məsələlərdə Azərbaycan-Türkiyə münasibətlərində müttəfiqlik məsələləri də öz əksini tapmışdır. Belə ki, Qars müqaviləsinin 5-ci maddəsindəki Naxçıvana Azərbaycan tərkibində muxtar ərazi statusu verilməsinin təsbit edilməsinə və muxtar respublikaya xarici təhdidlərin olduğu təqdirdə Türkiyənin “təminatçılıq” missiyasını yerinə yetirməyə səlahiyyətli olmasına dair müddəalar bu tarixi sənəddə sadəcə dostluq münasibətlərinin yox, müttəfiqlik vəzifələrinin də nəzərə alındığını göstərir.

Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən 22-24 mart 1992-ci il tarixdə Türkiyə Cümhuriyyətinə etdiyi tarixi səfər zamanı qardaş ölkənin dövlət rəsmiləri ilə görüşləri çərçivəsində türk mediası vasitəsilə məşhur Qars müqaviləsinin Naxçıvan haqqındakı maddələrini dünya ictimaiyyətinə çatdırmaqla təcavüzkar Ermənistanı beynəlxalq hüquq normalarına əməl edərək dövlət sərhədlərimizin toxunulmazlığına riayət etməyə çağırmışdır. Qars müqaviləsinin zaman-zaman gündəmə gətirilməsi Qafqazda münaqişələrin həllində bu beynəlxalq sənədin keçmişdə olduğu kimi indi də, bundan sonra da həlledici hüquqi statusa malik olduğunu diqqət mərkəzinə çəkir.

“Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin Azərbaycanla Türkiyənin birliyinə və əməkdaşlığına geniş strateji imkanlar açması nəticə etibarilə dünyada və Qafqazda, o cümlədən türk dünyası coğrafiyasında sülhün, qarşılıqlı etimadın və birgə əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir. Bəyannamədə Azərbaycan və Türkiyənin birlikdə məsul vəzifə kimi üzərinə götürdüyü regional səviyyədə sülhün və sabitliyin təmin edilməsindən başqa, “Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyət üzrə regional və beynəlxalq müstəvidə səyləri birləşdirmək” missiyasının da xüsusi bir sətirdə qeyd olunması müttəfiqlik müqaviləsinin əhatə dairəsini, masştabını təsəvvür etməyə imkan verir.

Bu mənada Azərbaycanla Türkiyə arasında bağlanmasına baxmayaraq, Şuşa Bəyannaməsi regional yox, mühüm siyasi-tarixi əhəmiyyətə malik olan beynəlxalq müqavilə xarakteri daşıyır.

Bundan başqa, adından da göründüyü kimi, “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” bütövlükdə iki qardaş ölkənin müttəfiqliyi məsələlərinin bütün istiqamətlərini özündə cəmləşdirir. Şuşa Bəyannaməsi qardaş ölkələrin beynəlxalq təşkilatlarda ortaq mövqe nümayiş etdirməsindən siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrinə qədərki bütün istiqamətlər üzrə birgə fəaliyyətinə hüquqi təminat verir.

“Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” miqyasına və mahiyyətinə görə müqavilələr külliyyatıdır. Bu mənada Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin bütün istiqamətlər üzrə ən yüksək zirvə səviyyəsinə çatdığını nümayiş etdirir.

Qars müqaviləsi XX əsrin əvvəllərində Türkiyənin Azərbaycan Sovet Respublikasına hərbi-siyasi dəstəyinin ifadəsi idi.

Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyə arasında tam və hərtərəfli müttəfiqlik müqaviləsidir.

Şuşa Bəyannaməsi Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün uzaqgörənliyinin və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” təliminin siyasi-diplomatik cəhətdən əsaslandırılmış və yeni dövrün meydana çıxardığı zəruri əlavələrlə zənginləşdirilmiş və daha böyük gələcəyə ünvanlanmış reallıqlarını əks etdirən dövlətlərarası müqavilədir.

Şuşa Bəyannaməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ortaq əsəridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuata bəyanatında Şuşa Bəyannaməsi haqqındakı mülahizələri müttəfiqlik münasibətləri haqqında müqavilənin mahiyyətini və tarixi əhəmiyyətini dolğun şəkildə ifadə edir: “Bu gün imzalanmış birgə bəyannamə... əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir... Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatçısıdır... Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, işbirliyi, müttəfiqlik nümunəsi göstəririk... Müttəfiqlik haqqında imzalanan birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir”.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın böyük səmimiyyət və inamla deyilmiş sözləri də bütün mənaları ilə birlikdə, həm də birlik və əməkdaşlığa dərin inam ifadə etməsi ilə səciyyələnir: “Bu gün, əziz qardaşımın dediyi kimi, xüsusilə “Bir millət, iki dövlət” təməli üzərində yüksəltdiyimiz əlaqələrimizi daha da inkişaf etdirəcək yeni bir tarixi addım atdıq... Bunu bundan sonrakı prosesdə daha da gücləndirəcəyik və gücləndirərək yolumuza davam edəcəyik.

Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik. Gələcəklə bağlı addımları atarkən artıq təkcə iki ölkənin deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük”.

Azərbaycan Respublikasının Milli Məclisində çıxışında da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarabağ Zəfərinə və birgə bəyannaməyə yüksək qiymət vermişdir: “Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərdən heç kəs narahat olmasın. Çünki bu, fəlakətin deyil, insanlığın, zülmün deyil, ədalətin, müharibənin deyil, sülhün, qanın deyil, qəlbin Zəfəridir”.

Bütün bunlara görə Şuşa Bəyannaməsinin 15 iyun 2021-ci il tarixdə, Azərbaycan üçün mühüm əhəmiyyətə malik olan Milli Qurtuluş Günündə imzalanması heç də təsadüfi olmayıb, bu mötəbər sənədin də öz mahiyyətinə görə milli qurtuluşun daha da möhkəmləndirilməsinə xidmət edən, Türkiyə ilə münasibətlərin gələcək inkişafına təminat verən siyasi-diplomatik akt olduğunu nümayiş etdirir.

Müttəfiqlik münasibətləri haqqında bəyannamənin erməni işğalından azad edilmiş Şuşa şəhərində imzalanması Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəmizə və xalqımıza qazandırdığı növbəti tarixi Zəfərdir.

Ümumiyyətlə, 15 iyun 2021-ci il tarixdə, Milli Qurtuluş günü Şuşa şəhərində həyata keçirilən ictimai-siyasi və mədəni tədbirlər müstəqillik dövrü Azərbaycan tarixinin böyük və mühüm, təkrarsız hadisələridir. Məhz Milli Qurtuluş Günündə Şuşa şəhərində Türkiyə Cümhuriyyətinin Baş Konsulluğunun açılmasına dair rəsmi məlumatın səslənməsi bir neçə cəhətdən mühüm əhəmiyyətə malikdir. Əvvəla, Şuşada Türkiyənin diplomatik nümayəndəliyinin fəaliyyət göstərməsi Qarabağda sülhün və əməkdaşlığın inkişaf etdirilərək daha da möhkəmləndirilməsinə qardaş ölkənin növbəti bir dəstəyinin ifadəsidir.

İkincisi, Şuşadakı Türkiyə Baş Konsulluğu Qarabağın yenidən qurulmasında yaxından və geniş şəkildə iştirak edən Anadolu şirkətlərinin, türk iş adamlarının fəaliyyətlərinin daha rahat, asan və səmərəli şəkildə öz işlərini qurmalarına, yaxın gələcəkdə isə turistlərin gəlib-getməsinin asanlıqla təşkilinə şərait yaradacaqdır.

Üçüncüsü və ən mühümü isə, Şuşadakı Türkiyə diplomatik korpusu Qarabağdakı türk sülhməramlıları ilə bərabər, yaxud paralel çalışaraq regionda Azərbaycanın hüquqlarının və maraqlarının qorunmasına və möhkəmləndirilməsinə töhfə verəcəkdir.

Şuşa Bəyannaməsinin imzalandığı gündə - 15 iyunda Cıdır düzündə təşkil edilmiş möhtəşəm kompozisiya ilk növbədə Milli Qurtuluşun və Qarabağın qurtuluşunun, həm də Böyük Qayıdışın böyük təntənəsi idi. Bu, - “Musiqi irsi və Qarabağ atları” kompozisyası Azərbaycanın Qarabağda qazandığı tarixi Zəfərin şərəfinə həsr olunmuş böyük qala konsert kimi də xüsusi əhəmiyyətə malikdir. Şuşa Bəyannaməsindən sonra Cıdır düzündə nümayiş etdirilən Çovqan oyunu və yallı rəqsi Azərbaycan-Türkiyə qardaşlığının şərəfinə təşkil edilmiş möhtəşəm konsert kimi də cəlbedici və əhəmiyyətlidir. Bir sözlə, xüsusi məsuliyyətlə, yüksək səviyyədə hazırlanmış Cıdır düzü Qala Konserti Azərbaycan Respublikasının yeni tarixi epoxadakı böyük mədəniyyət hadisəsi idi.

“Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin qəbul edilməsi və yaşanan şanlı tarixi günlər Azərbaycan - Türkiyə münasibətlərinin, Qardaşlıq, Birlik və Həmrəyliyimizin böyük təntənəsi, mühüm Zəfəri və Zirvəsidir.

Azərbaycan və Türkiyə birlikdə Zəfərlərdən Zəfərlərə doğru aparan tarixi yolu müasir dövrdə şərəflə, məsuliyyətlə və uğurla davam etdirməkdədir.

Azərbaycan və Türkiyə Birliyi və Əməkdaşlığı dünyaya və regiona, ölkələrimizə yalnız sülh, əmin-amanlıq, həmrəylik, yeniləşmə və inkişaf vəd edir. “Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi”ndən çıxan möhtəşəm nəticə bundan ibarətdir.

*Bir sözlə, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında “Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” beynəlxalq və regional müstəvidə yeni reallıqları meydana qoyur. Bu yeni tarixi mərhələnin reallıqları daha sabit həyata və dinamik inkişafa tam təminat verir.*

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***

## Şuşa Bəyannaməsi regionun iqtisadi potensialından istifadənin genişləndirilməsinə xidmət edir

44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra regionda yeni vəziyyətin yaranması təkcə Azərbaycan yox, bütün qonşu ölkələr üçün geniş iqtisadi perspektivlər açmışdır.

Bu baxımdan Prezident İlham Əliyevin “indi sülh şəraitində yaşamaqla bərpa-quruculuq işlərinə başlamağın vaxtı çatıb” çağırışı təsadüfi deyil. Dövlətimizin başçısının “Ermənistan revanşist hisslərindən əl çəkib bölgədə iqtisadi əlaqələrin inkişafına önəm verməlidir” bəyanatı da günün reallığından doğur.

Bunun ardınca Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan belə fikir irəli sürmüşlər ki, Azərbaycan, Türkiyə, Rusiya, İran, Ermənistan və Gürcüstan regionun inkişafı üçün birlikdə çalışmalıdırlar. Belə olan halda xüsusilə Zəngəzur dəhlizinin fəaliyyətə başlaması regionun 6 ölkəsi ilə yanaşı, bütün dünyada ticarət əlaqələrinin inkişafına müsbət təkan verə bilər. Xüsusən Ermənistan bu birliyə qoşulmaqla özünü saldığı tədric durumundan çıxarmış olar.

Xəbər verildiyi kimi, iyunun 15-də Şuşada iki qardaş ölkənin prezidentləri tərəfindən tarixi əhəmiyyət daşıyan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalamışdır. Bu mühüm sənəd özündə bir sıra siyasi, hərbi və iqtisadi məsələləri əks etdirir.

Şuşa Bəyannaməsinin iqtisadiyyata aid bəndlərindən birində deyilir: “Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb regionları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşdirilməsinə mühüm töhfə verəcəyini qeyd edirlər”.

Bəyannamədə həmçinin iki ölkənin ərazisindən keçən “Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi”nin rəqabət qabiliyyətinin artırılması üçün qarşılıqlı əməkdaşlığın əhəmiyyəti qeyd olunur. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyinin artırılmasını təmin edəcək. Bununla yanaşı, yeni dəhliz beynəlxalq əhəmiyyət daşıyacaq. Belə ki, Zəngəzur dəhlizi Çinin “Bir kəmər, bir yol” layihəsinin səmərəliliyini artırmaqla bərabər, beynəlxalq iqtisadi əlaqələrin möhkəmlənməsinə də öz faydasını verəcək.

Məlumdur ki, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətə başlaması sayəsində Azərbaycan beynəlxalq əhəmiyyətli nəqliyyat qovşağına çevrilmişdir. Düzdür, bu marşrutla yüklərin daşınması hələlik nəzərdə tutulan səviyyədə deyil. Səbəb dünyanı bürüyən koronavirus pandemiyası nəticəsində iqtisadi və ticarət əlaqələrinin zəifləməsidir. Bununla belə hazırkı vəziyyət həmin marşrutun gələcək perspektivlərinin yüksək olduğunu göstərir. Əvvəla, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ölkəmizin dünyada mühüm nəqliyyat qovşağı ölkəsi kimi əhəmiyyətini daha da artıracaq. Bu isə bütün region, eləcə də digər ölkələrin marağındadır. İkincisi, buna qarşı çıxan yalnız Ermənistandakı revanşist qüvvələrdir ki, onların da səsini özlərindən savayı heç kim eşitmir. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın dediyi kimi, “indi dünya Ermənistanın fikrini soruşmur”.

Şuşada həmçinin Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 2023-cü ilədək 15 milyard dollara çatdırılması qərarlaşdırılıb. Qarşıya qoyulan bu hədəfə çatmaq üçün Azərbaycanla Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılmasını nəzərdə tutub. Qeyd olunub ki, iki ölkə arasında ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın səmərəliliyinin, həmçinin perspektiv sahələrdə birgə istehsalın qurulmasının, investisiya əməkdaşlığının qarşılıqlı, faydalı inkişafının təmin edilməsi zəruridir. Bu istiqamətdə Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər həmçinin “Cənub qaz dəhlizi”ndən səmərəli istifadə olunması barədə də razılığa gəliblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sənədlərin imzalanması mərasimindən sonra bəyan etdi ki, “Türkiyə Petrolları” başda olmaqla bir çox şirkət Azərbaycanda, SOCAR başda olmaqla bir çox şirkət Türkiyədə mühüm investisiya qoyuluşlarını həyata keçiriblər. Türkiyənin dövlət başçısı həmçinin vurğuladı ki, iki ölkə şirkətləri gələcəkdə üçüncü ölkələrdə neft-qaz sahəsində birgə səmərəli əməkdaşlıq da edə bilərlər.

Bəyannamədə həmçinin qeyd edilir ki, tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcəklər, qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər. Eləcə də iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsi dəstəklənəcək.

Sənəddə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyi, əlaqələrin sadəcə iki ölkəyə deyil, regiona sülh və rifah gətirdiyi vurğulanır, beynəlxalq birliyin sabitlik, sülh və milli maraqlarına xidmət edəcəyi göstərilir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

# İnnovativ idarəçilik güclü dövlətin təməlidir

Əvvəli 1-ci səh.



Azərbaycan Respublikasında müasir dövlət idarəçiliyi sisteminin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Müstəqilliyinin ilk illərində səriştəsiz, məsuliyyətsiz, bəzən isə cinayətkarcasına idarəçilik nəticəsində ölkənin mövcudluğu üçün yaranmış kritik durumda Ulu Öndər Azərbaycanı siyasi, iqtisadi və sosial böhrandan çıxara bildi, iqtisadi və sosial inkişaf proqramlarının icrasına, ölkənin dünya birliyinə inteqrasiyasına müvəffəq oldu. Bu prosesin kadrlarla təminatı məqsədilə Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını yaratdı və ona kadrların hazırlanması və yenidən hazırlanması, daimi dəyişikliklər şəraitində dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinə dair tövsiyələrin işlənməsi sahəsində aparıcı elm, təhsil və informasiya mərkəzi statusu verildi. Prezident İlham Əliyevin 2014-cü və 2017-ci illərə aid sərəncamları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının ölkənin bu sahədə aparıcı təhsil, elmi-analitik və informasiya mərkəzi kimi statusu xeyli genişləndirildi.

Dövlət qulluğu sisteminin qurulması və təkmilləşdirilməsi prosesi 2003-cü ildən sonra xüsusi vüsət aldı. Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyi sisteminin təşkili və idarə olunmasının yeni texnologiyaları işləndi və tətbiq edildi. Bu da beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycanı iqtisadi, sosial və humanitar inkişaf və təhlükəsizliyin təmini naminə maddi və insan resurslarından ən səmərəli istifadə sahəsində dünya liderinə çevirdi. Prezident İlham Əliyev tərəfindən işlənib hazırlanan və tətbiq edilən dövlət idarəçiliyinin innovativ sistem və texnologiyalarının yüksək səmərəliliyi parlaq Vətən müharibəsi dönəmində də öz təsdiqini tapdı. 2020-ci ilin payızında Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan əraziləri 44 gün ərzində azad edildi və bununla da BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin qeyd-şərtsiz boşaldılmasını tələb edən qətnamələri yerinə yetirildi. Bu tarixi qələbə dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqinin nəticəsi idi. Dünya kütləvi informasiya vasitələrinin qiymətləndirmələrinə görə, Azərbaycan Respublikası ölkənin ərazi bütövlüyünün bərpası gedişində XXI əsrin hərbi texnologiyalarını dünyaya nümayiş etdirdi. Bu təcrübə hazırda bir çox ölkənin, o cümlədən hərbi sahədə dünya liderləri sayılan dövlətlərin mütəxəssisləri və müvafiq qurumları tərəfindən öyrənilir. Prezident İlham Əliyevin milli təhlükəsizlik strategiyasının başlıca fərqləndirici xüsusiyyəti hərbi quruculuğun ölkənin ərazi bütövlüyünün bərpası prosesinə informasiya dəstəyi və diplomatik səylərlə paralel aparılmasında idi. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin hərbi yolla icrasının həm diplomatik, həm də informasiya dəstəyi şəxsən Prezident İlham Əliyev tərəfindən həyata keçirildi. Onun mahir diplomat və parlaq intellektual kimi istedadı diplomatik və informasiya cəbhələrində də qələbəni təmin etməklə hazırda ölkə və bütövlükdə bölgənin davamlı inklüziv inkişafı üçün yeni şərait yaradır.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlət idarəçiliyi strategiyasının əsasında insan potensialının inkişafı, iqtisadiyyatda isə bu potensialın insan kapitalına transformasiyası dayanır. İlk dəfə Prezident İlham Əliyevin 2003-cü ildə Cenevrədə dünyanın 175 ölkəsinin nümayəndələrinin iştirakı ilə keçirilən ümumdünya sammitində açıqladığı bu konsepsiya iqtisadiyyatda qazanılan nailiyyətlərin insan inkişafı sahəsindəki uğurlara transformasiyasını ehtiva edirdi. Bu strategiya ardıcıl olaraq həyata keçirilməkdədir. İqtisadi sahədə uğurlu fəaliyyət ölkədə elm, təhsil, mədəniyyət, idman və səhiyyənin inkişafı vasitəsilə müasir rəqabətqabiliyyətli kadr potensialının formalaşdırılmasına imkan yaratmışdır. Bu proqramın həyata keçirilməsində məhdud imkanlara malik şəxslərin təhsil və sağlamlıq proqramlarına əlyetərliyini təmin etməklə insan potensialının formalaşdırılması prosesinə inklüziv xarakter qazandıran ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu var. Eyni zamanda Heydər Əliyev Fondu könüllüləri cəlb etməklə milli məsələlərin həllində əhalinin geniş təbəqələrinin iştirakının genişləndirilməsinə yönəlik siyasət reallaşdırmağa başlayıb. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, ölkədə Birinci vitse-prezident institutunun formalaşması, xanım Mehriban Əliyevanın bu mövqedə uğurlu fəaliyyəti davamlı inkişaf və inklüziv cəmiyyətin qurulmasına yönəlik vəzifələri böyük səmərəliliklə həll etməyə qadir yeni nəsil peşəkar idarəçi və dövlət qulluqçularının hazırlanmasında ən vacib amil kimi dəyərləndirilməlidir. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada azad edilmiş ərazilərin bərpası və reabilitasiyası üzrə işlər, beynəlxalq və milli tədbirlərin çox yüksək səviyyədə təşkili Heydər Əliyev Fondunun fəaliyyətinin mühüm göstəriciləridir.

Bu, dövlət inkişafı proseslərinin idarə edilməsində sinergetik texnologiyalardan istifadə nümunələrindən biridir. Komplementar və kompensasyon texnologiyalarla birgə ilk dəfə Prezident İlham Əliyev tərəfindən işlənmiş dövlət inkişafı proseslərinin idarə olunmasının bu innovativ texnologiyaları dövlət qurumları, vətəndaş cəmiyyəti, ilk növbədə Heydər Əliyev Fondunun, könüllülər hərəkatı və özəl sektorun birgə fəaliyyəti sayəsində yüksək səmərəliliyi təmin edir.

İlk dəfə Prezident İlham Əliyev tərəfindən işlənən yeni dövlət idarəçiliyi texnologiyalarının uğurlu tətbiqi yalnız dövlət inkişafının idarəedilməsi sahəsində yüksəkixtisaslı dövlət qulluqçularının mövcudluğu ilə məhdudlaşmır. Eyni zamanda ölkədə davamlı inkişaf və inklüziv cəmiyyətin qurulması sahəsində bu yeni yanaşma və texnologiyaları qəbul etməyə və həyata keçirməyə hazır bir mühitin formalaşdırılması vacib şərtdir. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli qərarlarına uyğun olaraq, göstərilən istiqamətlər 2030-cu ilədək ən vacib prioritetlər kimi müəyyən edilmişdir. Bu hədəflərə çatmaq üçün Prezident Administrasiyasının qərarlarına müvafiq qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası həm dövlət qulluqçularının hazırlanması və yenidən hazırlanmasını, həm də innovativ inkişaf mühitinin formalaşdırılmasını həyata keçirir (şəkil 1 ).




*Şəkil 1. Azərbaycan Respublikasında dövlət qulluqçularının hazırlanması sistemi və innovativ inkişaf mühitinin formalaşdırılması*

Bu proqram çərçivəsində 2021-ci il yanvarın əvvəlindən iyun ayınadək Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 1600-dən çox dövlət qulluqçusu təlim və yenidən hazırlıq keçmişdir. Qlobal pandemiya şəraitində bu fəaliyyət distant formada gerçəkləşdirilib. 2021-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən regional inkişaf üçün kadrların hazırlanması və yenidən hazırlanması proqramlarını xüsusi qeyd etmək lazımdır. Bu proqramlar çərçivəsində distant kurslara respublikanın 75 şəhər və rayonundan eyni vaxtda təlimlərdə iştirak imkanı qazanan 141 gənc dövlət qulluqçusu cəlb olunub.

Hazırda kadrların hazırlanması və səfərbər edilməsi də daxil olmaqla, dövlət idarəçiliyi sisteminin fəaliyyət səmərəliliyinin təhlilinin ən real üsulu bu fəaliyyətin nəticələrini ölkənin iqtisadi, sosial və humanitar inkişafı baxımından qiymətləndirməkdir. Bir qayda olaraq, bu qiymətləndirmələr tanınmış beynəlxalq təşkilatların məlumatlarına əsaslanır. Dünya Bankının bilgilərinə görə, 2020-ci ilin ilk aylarında ölkədə adambaşına düşən ÜDM (ümumi daxili məhsul, alıcılıq qabiliyyəti pariteti nəzərə alınaraq ABŞ dolları) əsrin əvvəli ilə müqayisədə 4.9 dəfə artmışdır. Bu, dünyanın ən yüksək göstəricilərindən biridir. Bununla birlikdə, Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, iqtisadi artım məqsəd deyil, yalnız insanların rifahının yüksəldilməsi və ölkənin təhlükəsizliyinin təmin edilməsi vasitəsidir. Bu siyasətin Azərbaycan Respublikasında səmərəliliyini 2-ci şəkildə aydın görmək olar.




***Şəkil 2. Azərbaycan Respublikası və iqtisadi cəhətdən yüksək inkişafa nail olmuş ölkələrdə Cini indeksi. İndeksin göstəricilərinin aşağı olması ölkədə sosial siyasətin yüksək səviyyəsindən xəbər verir. İnformasiya mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018, 2019.***

Şəkildə dünyanın müxtəlif ölkələrində sosial siyasətin göstəricisi olan və əhali arasında gəlir bölgüsünü xarakterizə edən Cini indeksinə dair bilgilər əksini tapıb. Cini indeksi nə qədər aşağı olarsa, ölkənin sosial siyasəti o qədər uğurlu sayılır. 2-ci şəkildəki məlumatlardan da göründüyü kimi, Azərbaycan Respublikasının sosial siyasəti çox uğurludur və beynəlxalq təşkilatların hesabatlarına görə, bu sahədə tanınmış dünya liderləri - Çexiya, Norveç, İsveç, Finlandiya kimi ölkələrin oxşar göstəriciləri ilə müqayisə edilə bilər. Təbii ki, belə bir nəticə yalnız səmərəli fəaliyyət göstərən dövlət idarəçiliyi və dövlət qulluğu sistemi sayəsində qazanıla bilər.

Prezident İlham Əliyev tərəfindən işlənilən və tətbiq olunan yeni dövlət idarəçiliyi texnologiyaları, bu innovasiyalara uyğun formalaşdırılan dövlət qulluğu sistemi Azərbaycan Respublikasının sosial siyasətin reallaşdırılması və insanların rifahının təmin olunması naminə iqtisadi imkanlardan səmərəli istifadə sahəsində dünya lideri kimi tanınmasına yol açıb. Bu fakt Davosda Dünya İqtisadi Forumunun qurucusu və daimi prezidenti, professor Klaus Şvab tərəfindən 2018-ci və 2019-cu illərdə hazırlanıb yayımlanan xüsusi qlobal hesabatlarda da əks olunub. Ümumi həcmi 1000 səhifədən çox olan bu hesabatlarda dünya ölkələrinin iqtisadi imkanları və bu imkanlardan əhalinin rifahının təmini üçün sosial siyasətdə necə istifadə olunduğu təhlil edilmişdir. Ümumilikdə, bu məsələ dünyanın 146 ölkəsində araşdırılmışdır. Bunlardan Azərbaycan Respublikası da daxil olmaqla, dünyanın yeddi ölkəsindəki vəziyyət xüsusi təhlilə cəlb edilmişdir. Əhalinin sosial rifahı üçün iqtisadi imkanlardan istifadənin müxtəlif səmərəliliyinin nümunələri kimi təqdim edilən təhlilin nəticələri 3-cü şəkildə verilmişdir.




***Şəkil 3. Sosial siyasətin reallaşdırılması üçün iqtisadi imkanlardan müxtəlif səmərəliliklə istifadə edən ölkələr. İnformasiya mənbəyi: Dünya İqtisadi Forumu, Davos, 2018, 2019.***

Yuxarıdakı şəkildən də göründüyü kimi, ABŞ, Almaniya, Danimarka, Braziliya və Cənubi Afrika Respublikası da daxil olmaqla, bir sıra ölkələrdə sosial siyasət mövcud iqtisadi imkanlardan xeyli zəifdir. Onlar şəkildə mənfi işarəsi ilə göstərilmişdir, yəni bu ölkələrdə sosial siyasət onların iqtisadi imkanlarının altındadır və işarədən sonrakı rəqəm bu fərqlərin dərəcəsini göstərir. Bu beynəlxalq quruma görə, Azərbaycan Respublikası (+31) qlobal miqyasda davamlı inklüziv cəmiyyətin qurulması üçün iqtisadi imkanlardan ən səmərəli istifadə edən ölkədir.

Sosial siyasətin reallaşdırılması sahəsində Azərbaycan Respublikasının qazandığı uğurlar Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyində yeni sinergetik, komplementar və kompensasyon texnologiyalar kompleksinin tətbiq edilməsinin nəticəsidir. Ölkədə Birinci vitse-prezident institutunun formalaşdırılması, Mehriban xanım Əliyevanın bu vəzifədə, həmçinin Heydər Əliyev Fondunun Prezidenti kimi fəaliyyəti ölkənin dünyada hazırkı və gələcək nəsillərin rifahı naminə madii resurslar və insan potensialından səmərəli istifadə üzrə şəksiz liderə çevrilməsinə şərait yaradıb.

Azərbaycan Respublikasında dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin yüksək səmərəliliyi digər beynəlxalq müqayisələrdən də aydın olur. Məsələn, bu il Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyası, hazırda Avropa Birliyinə üzv olan Baltikyanı dövlətlər də daxil olmaqla, keçmiş SSRİ respublikalarının 30 illik iqtisadi, sosial və humanitar inkişafının nəticələrini təhlil edən “Post-Sovet Ölkələrində Dövlət İdarəçiliyinin Təkamülü 1991-2021” toplusunu nəşr etdirib. Araşdırmada dövlət idarəçiliyi və dövlət qulluğunun təşkili səmərəliliyi ölkənin inklüziv inkişaf səviyyəsi və inklüziv inkişaf indeksinin hər bir vahidinin neçəyə başa gəlməsi ilə də müəyyən edilmişdir. Bu seçim təsadüfi deyil, çünki inklüziv inkişaf indeksi sosial və iqtisadi inkişaf səviyyəsinin ən informativ göstəricisidir. Onun dəyərləndirilməsi zamanı iqtisadiyyatın və cəmiyyətin müasir vəziyyəti (məşğulluq, gəlirlər, onların dəyişmə dinamikası, gəlir bölgüsünün ədalətliliyi, sağlamlıq, uzunömürlülük və s.) və həmçinin gələcəkdə davamlı inklüziv inkişaf dinamikasının qorunması perspektivləri (dövlət borcunun miqdarı, əhalinin əmanətlərinin həcmi, əhalinin demoqrafik quruluşu, qlobal iqlim dəyişikliklərinə təsir və s.) nəzərə alınır. Bundan əlavə, inklüziv inkişaf indeksi 2018-ci ildə dünya ölkələri üçün qlobal miqyasda ilk dəfə hesablanan ən müasir göstəricidir. Azərbaycan Respublikasının dövlət idarəçilik sisteminin innovativliyinin növbəti təsdiqi Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamına uyğun olaraq 2030-cu ilədək davamlı inklüziv cəmiyyət quruculuğunun prioritet olaraq qəbul edilməsidir.




***Şəkil 4. Keçmiş SSRİ ölkələrində inklüziv inkişaf indeksinin hər vahidinə görə adambaşına düşən xərclər (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla min ABŞ dolları). İnformasiya mənbəyi: Dünya Bankı, 2020; Dünya İqtisadi Forumu, Davos, 2018.***

4-cü şəkildə keçmiş SSRİ ölkələrində yeni müstəqil dövlətlərdə davamlı inklüziv cəmiyyətin qurulması üçün vəsaitlərin nə dərəcədə səmərəli istifadə edildiyini xarakterizə edən məlumatlar təqdim olunub. Məlumatları 4-cü şəkildə əksini tapan keçmiş SSRİ ölkələri arasında bəzi dövlətlər üçün beynəlxalq təşkilatlar tərəfindən inklüziv inkişaf indeksləri hesablanmışdır. Şəkildən göründüyü kimi və beynəlxalq qurumların məlumatlarına görə, Azərbaycan Respublikası alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla inklüziv inkişaf indeksinin hər bir vahidinə adambaşına 4040 ABŞ dolları xərcləyir. Şəkildə yer alan digər ölkələr, hazırda Avropa Birliyinin üzvləri də daxil olmaqla, eyni hədəflərə çatmaq üçün 1,5 - 1,9 qat daha çox vəsait xərcləyirlər ki, bu da adambaşına düşən pul nisbətində, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, 6480 ilə 7570 ABŞ dolları arasındadır.

Eyni hədəflərə daha az xərclərlə nail olmaq yalnız inkişaf proseslərinin optimal və innovativ idarə olunması, insan potensialının hərtərəfli səfərbər edilməsi və iqtisadiyyatda insan kapitalına çevrilməsi şəraitində mümkündür. Milli səviyyədə bu istiqamətdə yüksək nəticələr yalnız innovativ dövlət idarəçiliyi sisteminin inkişafı və bu tələblərə cavab verən dövlət qulluqçularının səmərəli təlim və səfərbərlik sisteminin formalaşdırılması kontekstində qazanıla bilər. İlk dəfə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən işlənilən innovativ dövlət idarəçiliyi texnologiyaları ölkənin davamlı inklüziv inkişaf üçün resurslardan səmərəli istifadə sahəsində dünya tərəfindən tanınan liderə çevrilməsini təmin edib.

Azərbaycan Respublikasının dövlət idarəçiliyi sisteminin yüksək səmərəliliyi dünya ölkələrində davamlı inklüziv inkişafla bağlı vəziyyətə dair qlobal müqayisələrdə də öz əksini tapmışdır (şəkil 5).




***Şəkil 5. İnklüziv inkişaf göstəriciləri və bu göstəriciyə görə dünya ölkələrinin reytinqləri. İnformasiya mənbələri: Dünya Bankı, 2020; BMT, 2020; Dünya İqtisadi Forumu, Davos, 2018.***

5-ci şəkildə təqdim edilən məlumatlardan aydın olur ki, Azərbaycan Respublikası yalnız regional deyil, həm də davamlı inklüziv inkişafın planlaşdırılması və idarə edilməsində qlobal liderdir. Beynəlxalq təşkilatların hesabatları göstərir ki, Azərbaycan bu göstəriciyə görə ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Yunanıstan, Polşa, Portuqaliya, Rumıniya və digər ölkələri qabaqlayaraq dünyada 25-ci yerdə qərarlaşıb. Eyni zamanda Azərbaycanın maliyyə imkanları bütün bu ölkələrlə müqayisədə xeyli məhduddur. Dünya Bankı və digər qlobal tədqiqat mərkəzlərinin hesabatlarında təqdim olunan bilgilərə görə, Azərbaycan iqtisadi potensialına görə dünyada 82-ci yerdədir. Bir qayda olaraq, ölkələrin iqtisadiyyat və inklüziv inkişaf sahəsindəki reytinqləri eyni və ya çox yaxındır. Azərbaycan dünyada iqtisadi imkanlarından 57 pillə yüksək inkişaf reytinqinə malik yeganə ölkədir. Bu göstərici baxımından dünyada ikinci və üçüncü mövqeləri Çex Respublikası, Koreya Respublikası, İslandiya və iqtisadi inkişaf reytinqi iqtisadi imkanlarından 8-13 pillə yüksək olan bəzi digər ölkələr tutur.

Beləliklə, təhlillər göstərir ki, dövlətin inkişafı və dövlət qulluğunun təşkili üçün Prezident İlham Əliyev tərəfindən hazırlanmış və tətbiq olunan yeni texnologiyalar, Birinci vitse-prezident institutunun formalaşdırılması və səmərəli fəaliyyəti də daxil olmaqla reallaşdırılan struktur dəyişiklikləri Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar inkişafın müasir və prioritet sahələrində dünya liderləri sırasında yer almasına şərait yaradıb. Dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin səmərəliliyini Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa olunması və beləliklə, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsi ilə yekunlaşan 44 günlük parlaq Vətən müharibəsi bir daha təsdiqlədi.

Qeyd edilənlər Azərbaycan Respublikasında yüksək səmərəliliyi ilə fərqlənən dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin formalaşması və fəaliyyətindən xəbər verir. Bu, eyni zamanda ölkənin iqtisadi, sosial və humanitar inkişafının, təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasının zəmanətidir.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

## Məqsəd sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır







Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Nərimanov rayonu Fətəli Xan Xoyski prospekti 112, 114, Aşıq Alı küçəsi 3, 4A ünvanlarında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətin ərazisində 2 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binalarda yeni liftlər, işıqlandırma dirəkləri, yanğın hidrantları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elektromaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 30 ədəd ağac əkilib və 3000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

## Azərbaycan tərəfi UNESCO missiyasını qəbul etməyə hazırdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin UNESCO-nun Baş direktoru Odre Azule ilə telefon danışığının davamı olaraq, son aylar ərzində Azərbaycan və UNESCO arasında videokonfrans formatında bir sıra görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırarkən bildirib.

Leyla Abdullayeva qeyd edib ki, 2021-ci il iyunun 21-də baş tutmuş sonuncu görüş zamanı Azərbaycan tərəfi ölkəmizin UNESCO missiyasını qəbul etməyə hazır olduğunu bir daha vurğulayıb və təşkilatı bu prosesi sürətləndirməyə çağırıb. Bu xüsusda UNESCO missiyasının işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına, həmçinin Şuşa şəhərinə səfəri ilə bağlı müzakirələr aparılıb.

“Əlavə olaraq qeyd etmək istərdim ki, Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) arasında aparılmış müzakirələr nəticəsində BMTQAK-ın ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə edilib. Azərbaycan BMTQAK missiyasını da qəbul etməyə tam hazırdır. Hazırda səfərlə əlaqədar işlərin yekunlaşdırılması üçün hər iki təşkilatdan cavab gözləyirik”, - deyə Azərbaycan XİN-in sözçüsü bildirib.

# BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Füzuli rayonunda erməni vəhşiliklərini görüb

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos işğaldan azad olunmuş Füzuli rayonunda olub.





AZƏRTAC xəbər verir ki, səfərin məqsədi Ermənistan silahlı qüvvələri tərəfindən işğal zamanı həyata keçirilən vandalizmin, Azərbaycanın tarixi-mədəni və dini irsinin məhv edilməsinin nəticələri ilə tanış olmaqdır. BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsini Azərbaycanın mədəniyyət naziri Anar Kərimov müşayiət edib.

Səfər iştirakçıları əvvəlcə Qaraxanbəyli və Merdinli kəndlərində erməni barbarlığı ilə tanış olublar. Erməni vandalları 27 il ərzində kəndləri talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Qaraxanbəyli kəndindəki məscidi tamamilə dağıdıb, Merdinli kəndindəki məsciddən isə mal-qara tövləsi kimi istifadə etməklə azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos sonra Füzuli şəhərinin xarabalıqları ilə tanış olub. “Araz” qəzetinin redaksiyasının, Mədəniyyət Evinin, Məhəmməd Füzulinin heykəlinin, 1879-cu ildə inşa edilmiş məscidin olduğu əraziyə baxış keçirilib. Hansı ki, bunların heç birindən əsər-əlamət qalmayıb, hamısı ermənilər tərəfindən dağıdılıb.

Migel Angel Moratinos Füzuli rayonunun Qarğabazarı kəndində qədim karvansaraya, hamam və XVII əsrə aid məscidin qalıqlarına da baxıb, ermənilərin törətdikləri vəhşiliklərin bilavasitə şahidi olub.

# BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi işğaldan azad edilmiş Ağdama səfər edib

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos Füzuli rayonunda erməni barbarlığı ilə tanışlıqdan sonra iyunun 22-də Ağdam rayonuna gəlib.







AZƏRTAC xəbər verir ki, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsini Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli müşayiət edib.

BMT-nin ali nümayəndəsi Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi, eləcə də tarixi, dini, mədəni abidələrimizin vandalizmə məruz qalması barədə ətraflı məlumatlandırılıb. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Ağdam şəhərinin Baş planı ilə tanış olan Migel Angel Moratinosa həyata keçiriləcək quruculuq işləri barədə də ətraflı məlumat verib. Bildirib ki, Prezident İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı avtomobil yolunun, yaşayış binasının, Sənaye Parkının, 1 saylı məktəbin yeni binasının təməlini qoyub, park-meşədə ağac əkib.

Baş plana əsasən Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada ağıllı və dayanıqlı sosial infrastruktur yaradılacaq. Şəhərdə 15 məktəb və uşaq bağçasının inşası nəzərdə tutulub. Məktəb və uşaq bağçalarının əhatə dairəsi 500 metr təşkil edir.

Ağdamda ilkin olaraq şəhər sakinləri və qonaqlar üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcək. Həmçinin Ağdamda Sənaye Parkı da yaradılacaq. Park qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək.

Qonaq stendlərdə Ağdam şəhəri üçün yeni məscid nümunələri, bina tipologiyaları və şəhərətrafı obyektlər, yol-nəqliyyat infrastrukturu ilə tanış olub. Diqqətə çatdırılıb ki, Qafqazın Xirosiması kimi tanınan Ağdam Azərbaycan Prezidentinin və hökumətinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos sonra Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksində olub. Migel Angel Moratinos Qarabağ xanlığının banisi Pənahəli xanın imarətinin də erməni vandalizminə məruz qalması barədə məlumatlandırılıb. Bildirilib ki, Qarabağ xanlığının banisi Pənahəli xan XVIII əsrdə Ağdamda ağ daşdan ev tikdirib. Ağdam şəhərinin adı da burdan götürülüb. Qədim türk dilində isə Ağdam kiçik qala mənasını daşıyır. Ağdam şəhəri Qarabağ xanlığı dövründə inkişaf edib.

Diqqətə çatdırılıb ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

Migel Angel Moratinos Ağdam şəhər Cümə məscidində ermənilərin törətdikləri barbarlıqla tanış olub. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid “Qarabağ məscid memarlığı” məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına baxıb. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonağa ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verib. Bildirib ki, Ağdamda Azərbaycan mədəniyyətinin ən vacib nümunəsi sayılan muğam geniş inkişaf edib. Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərib. Lakin işğal dövründə hər şeyi məhv edən ermənilər mədəniyyət ocaqlarını, musiqi məktəblərini də dağıdıblar. Məlumat verilib ki, Ağdam şəhərində Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq. Teatr binasının qalıqları da açıq səma altında muzeydə saxlanılacaq.

# Şərtləri İlham Əliyev diktə edir

Əvvəli 1-ci səh.

Erməni xalqının bu seçimi təsdiq etdi ki, ölkə ictimaiyyəti Azərbaycanın şərtlərinin qəbul edilməsinin tərəfdarıdır. İllərdir acınacaqlı durumda yaşayan sadə ermənilər yaxşı anlayırlar ki, bu durumdan qurtuluşun yeganə yolu Azərbaycanla münasibətlərin normallaşmasıdır.

Əgər hakimiyyət geri addım atarsa, 10 noyabr Bəyanatındakı şərtlərin yerinə yetirilməsindən imtina edərsə, Ermənistan bu tarixi şansı itirəcək və reallaşası layihələr yenə də bu ölkədən yan keçəcək, ölkə üçün daha da böyük problemlər yaranacaq.

## Şuşa Bəyannaməsi regionun gələcək inkişafı üçün imkanlar yaradır

Prezident İlham Əliyev də vurğulayır ki, Zəngəzur dəhlizindən keçəcək nəqliyyat, kommunikasiya, infrastruktur layihələri Ermənistan üçün də əlavə imkanlar aça bilər. Çünki bu gün Ermənistanın nə Rusiya, nə də ki, İranla dəmir yolu əlaqəsi yoxdur. Azərbaycan hər iki dəmir yolu xəttinin yaradılmasını təmin etməyə hazırdı.

Ermənistan özünü heç olmasa, bundan sonra normal, sivil qonşu kimi aparарsa, nəinki itirər, əksinə, qazana bilər. Artıq neçənci dəfədir ki, Azərbaycanın humanist Prezidenti düşmən ölkənin düşdüyü acınacaqlı durumdan, iqtisadi bataqlıqdan qurtuluş yollarını göstərir. Bu da bir daha onu deməyə əsas verir ki, İlham Əliyev nəinki Azərbaycanın, hətta qonşu və tərəfdaş ölkələrin də iqtisadiyyatının inkişafına kömək etmək üçün təşəbbüslər irəli sürür.

Göründüyü kimi, İlham Əliyev bu gün postmüharibə dövrünün reallıqlarını ortaya qoyur və yeni hədəfləri, inkişaf istiqamətlərini müəyyənləşdirir. Qardaş Türkiyə Respublikası ilə imzalanan Şuşa Bəyannaməsi isə Azərbaycanın yüksəlişi, daha da qüdrətlənməsi üçün əlverişli imkanlar açdı.

İyunun 15-də, Milli Qurtuluş Günündə Şuşa Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalandığı tarixi məkana çevrildi. Qədim Azərbaycan şəhərindən dünyaya ötürülən əzmli və qətiyyətli mesajlar regionun iki nüfuzlu lideri - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dilindən çatdırıldı. Şuşa Bəyannaməsi 100 il əvvəl - 1921-ci il 13 oktyabrda imzalanmış Qars müqaviləsindən sonra Türkiyənin Azərbaycana dəstəyini ən güclü formada nümayiş etdirən rəsmi sənəddir. Qars müqaviləsinə istinad edilən bəyannamə öz formatına görə ondan daha əhatəlidir. Bu sənəddə Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi, iqtisadiyyat, təhsil, müasir texnologiyalar üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi, Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi, iki ölkənin silahlı qüvvələrinin fəaliyyət qabiliyyətinin birlikdə artırılması və digər tədbirlər nəzərdə tutulur.

İki qardaş ölkənin bütün həyati əhəmiyyətli məsələləri ilə bağlı müddəaların əksini tapdığı bəyannamə regional təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyətə malikdir. Bundan sonra Azərbaycana qarşı istənilən təxribatın, hücumun qarşısında iki qardaşın əzmi görünəcək. Yeni Azərbaycanın hər hansısa bir ərazisinə hücum edən qüvvənin başına iki dəmir yumruq dəyəcək.

## Azərbaycanın və regionun inkişafında yeni dövr başlayır

Bu gün Azərbaycan həm də işğaldan azad edilmiş torpaqlarda abadlıq-quruculuq işləri aparmaqdadır. İlham Əliyev tezliklə Qarabağın şöhrətini özünə qaytarmaq üçün cox böyük layihələr reallaşdırır. Bu ərazilərdə yeni avtomobil və dəmir yolları, hava limanları, su elektrik stansiyaları, ağıllı kənd və şəhər layihələrinin icrası davam etdirirlir. Şəhərlərin baş planları təsdiqlənir. İlk Baş Planı təsdiqlənən Ağdam şəhərində hazırda böyük tikinti bumu yaşanır.

Bütün proseslərə şəxsən nəzarət edən Prezident tez-tez işğaldan azad edilmiş ərazilərə səfər edib görülən işlərlə tanış olur və daha yeni layihələrin təməlini qoyub xeyir-duasını verir.

Azad edilmiş torpaqlarımızda reallaşacaq mühüm infrastrukturlar, layihələr onu deməyə əsas verir ki, artıq Azərbaycanın və regionun inkişafında yeni dövr, yeni era başlayır. Bu layihələrin gerçəkləşməsi isə regional inkişaf, əməkdaşlıq, bağlılıq üçün daha əlverişli imkanlar yaranacaq. Tezliklə xarici investorların da azad edilmiş torpaqlarımızda yeni layihələrə sərmayə yatırmaları əlbəttə ki, iqtisadiyyatımızın daha da yüksəlişini təmin edəcək. Azərbaycan həm Qarabağın şöhrətini özünə qaytaracaq, həm də iqtisadi dividendlər qazanacaq. Bütün bunlar Azərbaycanın Cənubi Qafqaz regionunda ən sabit, ən qüdrətli və lider ölkə statusunun, mövqeyinin daha da möhkəmlənməsini şərtləndirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Vətən müharibəsində yaralanmış 33 qazi yüksək texnologiyalı protezlərlə təmin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən postmüharibə dövründə həyata keçirilən dəstək tədbirləri çərçivəsində daha 50 Vətən müharibəsi qazisinin son nəsil protezlərlə təminatı prosesinə başlanılıb. Onlardan 8-i yüksək texnologiyalı protezlərlə təmin olunub. Beləliklə, 33 qazi yüksək texnologiyalı protezlə təmin edilib.



AZƏRTAC xəbər verir ki, iyunun 22-də Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində protezlərlə təmin olunan 8 qazi ilə görüş olub, onların rəy və təəssüratları öyrənilib. Vətən müharibəsi qaziləri - Samid Xudadlı, Ramiz Qasımov, Sərxan Quliyev, Elşən Həmidov, Asim Məmmədbəyov, Bəşir Məmişov, Hüseyn Sadıqov və Ceyhun Camalov müasir protezlərin rahat hərəkətə imkan verdiyini bildirib, göstərilən dəstəkdən razılıq ifadə ediblər.

Dövlət hesabına təqdim edilən protezlər dünyada bu sahədə ən qabaqcıl olan “Genium” sisteminin - yüksək aktivlik və funksionallıq dərəcəsi olan protezlərin istehsalı sisteminin standartları əsasında hazırlanır. Protezlər elektron oynaq əsasında hərəkətin tam və daha dəqiq tənzimlənməsinə, köməkçi vasitələr olmadan sərbəst addımlamağa, qeyri-bərabər səth və pandusla uyğun və sabit, inamlı hərəkətə, dəyişən məkanlarda və məqamlarda maneəsiz dönməyə imkan yaradır. Proqram təminatı ilə nizamlanan həmin protezləri istifadə edən şəxs istədiyi rejimi seçərək onlarla rahat hərəkət imkanı qazanır.

Aşağı ətrafları amputasiya olunmuş qazilərlə yanaşı, yuxarı ətrafları amputasiya olunmuş qazilərin də son nəsil protezlərlə təminatı üçün işlər davam etdirilir. Bu sahədə görülən işlər yüksək texnologiyalı protezləşmə sahəsində ən qabaqcıl dünya təcrübəsinə malik olan İslandiyanın ÖSSUR şirkəti ilə əməkdaşlıq şəraitində aparılır. Şirkətin mütəxəssisləri tərəfindən təlimlər keçirilərək müvafiq sahədə ən müasir dünya təcrübəsi öyrənilib, həmçinin yuxarı ətrafları amputasiya olunmuş 32 qazidən müvafiq ölçülər götürülüb.

# Türkiyəli müxbir Fulya Öztürk Tərtər rayonunda olub

“Fulya” adlı sənədli filmin çəkilişi ilə əlaqədar filmin qəhrəmanı, Vətən müharibəsi zamanı operativliyi və dəqiqliyi ilə Azərbaycan xalqının rəğbətini qazanan türkiyəli müxbir Fulya Öztürk Tərtər rayonunda olub.



Fulya Öztürk Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla görüşüb. Görüşdə 44 günlük Vətən müharibəsinin ən çətin anlarında Fulya xanımın tərtərlilərlə bir yerdə olduğu, Azərbaycan həqiqətlərini, o cümlədən Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunda törətdikləri terror hadisələrini dünya ictimaiyyətinə operativ çatdırdığı minnətdarlıqla xatırlanılıb.

“Azərbaycanfilm” kinostudiyası və Türkiyənin “Dado” Produksionun çəkiliş qrupu tərəfindən hazırlanan sənədli filmdə Fulya Öztürkün Ermənistan silahlı qüvvələrinin Azərbaycanın digər şəhər və rayonları kimi Tərtərdə də dinc əhaliyə qarşı törətdiyi terror zamanı təqdim etdiyi reportajların filmdə yer alması və çəkilişlərin bir hissəsinin Tərtərdə aparılması nəzərdə tutulub.

Fulya Öztürk səmimi görüşə görə təşəkkür edib. Yenidən Tərtər rayonunda olduğundan sevinc hissi keçirdiyini bildirib, müharibə zamanı baş verən dəhşətli hadisələrin bir daha təkrarlanmamasını arzulayıb.

Sonra 44 günlük Vətən müharibəsində Azərbaycan həqiqətlərinin, o cümlədən Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunda törətdikləri terror hadisələrinin dünya ictimaiyyətinə çatdırılmasında göstərdiyi xidmətlərə görə Fulya Öztürk Tərtər Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən təşəkkürnamə ilə təltif edilib, ona xatirə hədiyyəsi təqdim olunub.

***Lazım QULİYEV***
***“Azərbaycan”***

# Ermənistanda seçkilərdən sonra da sular durulmur

Əvvəli 1-ci səh.

Parlamentin ilk iclasında “Vətəndaş müqaviləsi” partiyasından seçilmiş deputatlar baş nazir vəzifəsinə namizəd göstərəcəklər. Qanunvericilik orqanında heç kim bu prosesə təsir edə bilməyəcək; partiyanın lideri Paşinyanın hökumət başçısı vəzifəsinə namizədliyi dəstəklənəcək. Bundan sonra prezident onu baş nazir təyin edəcək. Yeni və köhnə baş nazir iyirmi gün ərzində hökumətin proqramını parlamentə təqdim edəcək. O həm də Təhlükəsizlik Şurasına rəhbərlik edəcək, müharibə şəraitində isə ali baş komandan olacaq.

İndi diqqət seçkisonrası mərhələnin necə gedəcəyinə yönəlmişdir. Ölkədə gələcək siyasi proseslərə münasibətdə fikirlər fərqlidir. Bəzi yerli və əcnəbi ekspertlər hesab edirlər ki, II Qarabağ müharibəsində məğlub olmasına baxmayaraq, Paşinyanın seçkilərdə qalib gəlməsi gözlənilən idi. Onların fikrincə, bir çox seçicilər Paşinyanın lehinə yox, Koçaryanın əleyhinə səs vermişdilər. 2018-ci ildən bəri Paşinyan hökumətinin həyata keçirdiyi islahatlar yarımçıq və bəzən uğursuz olsa da, bir çox hallarda aşağı təbəqə üçün məqbul idi. Xüsusilə kiçik və orta biznesdə oyun qaydaları yaxşılaşmışdır. Hökumətin bu addımları, habelə cəmiyyətdə eks-prezidentlər Pobert Koçaryan və Serj Sarkisyan iqtidarlarına hələ də hakim olan mənfi münasibət müxalifətin II Qarabağ müharibəsində məğlubiyyətin günahını təkcə Paşinyanın üzərinə qoymağa imkan verməmişdir. Erməni xalqı Koçaryan-Sarkisyan cütlüyünün rəhbərlik etdiyi “Qarabağ klanı”nın Paşinyan hakimiyyətə gələnədək siyasi, iqtisadi və s. sahələrdə törətdiyi çoxsaylı cinayətləri, qanunsuzluğun, korrupsiyanın tüğyan etdiyi dövrü unutmamışdır. Koçaryanın revanşist bəyanatları, yəni vətəndaşları yenidən müharibə oduna atmaq niyyəti elektoratda çətin ki, tərəfdar toplasın. Eks-prezidentin və hazırkı ana müxalifətin liderinin qısa müddətdə güclü ordu qurmaq planı da cəfəngiyyatdan başqa bir şey ola bilməz.

Digər tərəfdən, erməni cəmiyyəti belə bir məqamı diqqətdən qaçıra bilməz ki, II Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri Paşinyanın yox, Koçaryan və Sarkisyanın qurduqları ordunu darmadağın etmişdir. Elə Paşinyanın özü də yeri gəldikcə vurğulayırdı ki, Azərbaycan tərəfi uzun illər boyunca müasir ordu quranda Ermənistan hakimiyyəti əlini əlinin üstünə qoyub heç nə etmirdi.

Bütün bunlarla yanaşı, Ermənistanda siyasi sabitliyin tezliklə bərqərar olacağını iddia etmək yersizdir. Ölkədə iqtidar-müxalifət qarşıdurmasının güclənəcəyi ehtimal edilir.

Heç kimə sirr deyil ki, Koçaryanı siyasi hakimiyyətə qaytarmaq planı ölkədən kənarda cızılmışdır. Yerli ekspertlər də hesab edirlər ki, erməni cəmiyyəti hələ bir çox siyasi təlatümlər dövründən keçməlidir. Vətəndaşların bir il içində, bəlkə də, daha əvvəl yenidən seçki məntəqələrinə getməli olacağı mümkündür, çünki ölkənin yaşadığı dərin böhran hələ başa çatmamışdır.

Koçaryanın son bəyanatları da qarşıdakı mərhələdə özünün rəhbərlik etdiyi müxalifətin dinc durmayacağına dəlalət edir. O bildirmişdir ki, başçılıq etdiyi klan geri çəkilmək fikrində deyil: “Biz nə etmək niyyətindəyik? Mübarizəni davam etdirməli. Parlament mübarizəsi güclənə, küçə mübarizəsini əvəzləməyə bilər. Bizim küçə mübarizəsində də böyük təcrübəmiz var. Bu müqayisə yalnız imkanlarımızı artırır. Bu seçkilər siyasi mənzərəni əhəmiyyətli dərəcədə dəyişdirdi. Bizim siyasi mübarizəyə gəlişimiz siyasi sahədə sunami kimi bir şeydir. Sürəti, dinamikanı qoruyub saxlayacağıq, əminik ki, bizdə həm insan potensialı, həm də intellektual imkanlar var”.

Bütün bunlar onu göstərir ki, Ermənistanda suların tezliklə durulacağını gözləməyə dəyməz. Koçaryanı siyasət meydanına itələyənlər onu baş nazir kürsüsündə görmək istəyirdilər və bu məqsədə bundan sonra da nail olmağa çalışacaqlar. Öz növbəsində Paşinyanın komandası və ona Sorosun timsalında dəstək verən xarici qüvvələr də rahat oturmayacaq. Başqa sözlə, erməni cəmiyyəti yaxın dövrdə sorosçularla klançılar arasında mübarizənin şahidi olacaq. Bəs kim kimə üstün gələcək? Bu sualın cavabını gözləmək lazım gələcək.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Zəfərin ilk işığı

**2020-ci ilin sentyabrında Azərbaycan xalqı üçün bütün arzuların adı Vətən oldu. Hər kəs bu hisslərlə yaşayırdı. Otuz ilə yaxın erməni qəsbkarlarının işğalında qalmış torpaqlarımızı qısa müddətdə azad etmək üçün Azərbaycan bir yumruq kimi birləşdi.**

Sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələri yenidən atəşkəs rejimini pozdular. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatına başlamalı oldu. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində dedi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var".

Dövlət başçısı o gün müraciətinin sonunda vurğuladı: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" Bu sözlər Vətən müharibəsində Azərbaycan xalqı üçün zəfərin ilk işığı, ilk ümidi oldu.

İlham Əliyev qismən səfərbərlik elan etdi. Və Azərbaycan xalqı Ali Baş Komandanın bu əmrini böyük coşqu ilə qarşıladı.

Vətən müharibəsi 44 gün davam etdi. Otuz ilə yaxın davam edən erməni işğalına son qoyuldu. Azərbaycan dövlətinin, Azərbaycan xalqının bu müharibədə zəfər çalmasının ən başlıca səbəbi inam idi. Haqq yolunda irəlilədiyini, ədalətlə mübarizə apardığını bilməyimiz bizim ən böyük gücümüzdü.

Azərbaycan bu müharibəyə mənəvi cəhətdən hazır idi. Xalq uzun illər idi Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Vətən torpaqlarının geri alınacağı günü gözləyirdi. Hər il ərazilərimizin işğal günlərini qeyd etmək bizim ruhumuzu sıxır, qürurumuzu incidirdi. Təqvimdən bu qara ləkəni silmək, yeni tarixlər - Zəfər tarixləri yazmaq ən böyük amalımızdı. Odur ki, Vətənin qəhrəman övladları ilk gündən könüllü ordu sıralarına yazılaraq cəbhəyə yollandılar. Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri işğalçı Ermənistan silah qüvvələrinə qarşı döyüşdü. Azərbaycan əsgəri və onun cəsur komandirləri əsl qəhrəmanlıq göstərdilər.

Ancaq o 44 gün davam edən döyüşlərdə iştirak etməyənlər, əlinə silah almayanlar da özlərini Azərbaycan əsgərləri kimi hiss etdilər. Xalqın dilinin əzbəri, gözlərinin nuru, qəlbinin ən böyük sevgisi Vətən oldu. Haqq savaşında qalib gələcəyimizin xəbərini anbaan gözlədik.

Vətən müharibəsində Zəfərimizin bir böyük açarı da Azərbaycan dövlətinin bu istiqamətdə illərdir ardıcıl həyata keçirdiyi işlər oldu. Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə danışarkən deyirdi: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Dövlət başçısı hər zaman açıqlayırdı ki, bizim güclü ordumuz var. Bu möhtəşəm gücü, qüvvəni də Vətən müharibəsi başladığı ilk vaxtdan gördük. Azərbaycan Ordusu döyüşlərdə ən müasir silahlardan istifadə etdi. Nəticədə həm sürətlə irəlilədi, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə reallaşdırdı. Silahlı Qüvvələrimiz illərdir Ermənistan ordusunun güclü olduğu barədə uydurduğu mifi darmadağın etdi.

Prezident İlham Əliyev xalqa müraciətlərinin birində xüsusi qeyd etdi ki, düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur: " Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

Buna görə də döyüş əməliyyatlarında erməni əsgəri mövqelərini qoyub qaçırdı, Azərbaycan əsgəri isə öz torpağı uğrunda canından keçirdi.

Azərbaycan Böyük Qələbəyə addım-addım yaxınlaşdı. Noyabrın 8-də Qarabağın incisi - Şuşa şəhəri işğaldan azad edildi. Bu qədim və gözəl şəhərin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu olmadı. Ermənistanın müdafiə naziri David Tonoyan ölkəsinin imzaladığı bəyanatı xəyanət kimi qiymətləndirənlərə cavab verərək deyib: "Biz çox böyük bir qüvvəyə - super silahlı Azərbaycan Ordusuna qarşı vuruşduq. Məndən "bəs siz niyə silahlanmadınız?" deyə soruşa bilərsiniz. Biz də silahlı idik, ancaq keyfiyyət və resurslar baxımından imkanlar qeyri-mütənasib idi".

Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu hərbi qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı.

Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Ali Baş Komandanını dəstəkləməsi, onun ətrafında sıx birləşdiyinin şahidi olduq.

Döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa çarəsi qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla, düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə ordumuzun tamamilə modernləşdirilməsi Azərbaycanda ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərdir. Belə olmasaydı, hazırda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

Azərbaycan Ordusunun gücü, əsgər və zabitlərimizin yüksək peşəkarlığı, mübarizə əzmi işğalçının geri çəkilməsi, döyüşdə təslim olması ilə nəticələndi. Bu möhtəşəm qələbələrdən bundan sonra da çox danışılacaq, haqqında kitablar yazılacaq, filmlər çəkiləcək...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Tarix yazan oğullar

# Üç medala layiq görülən könüllü döyüşçü

**44 günlük Vətən müharibəsinin iştirakçısı, könüllü döyüşçü Muxtar Nizaməddin oğlu Süleymanov 1998-ci il fevralın 18-də Şəmkir rayonunun Təzəkənd kəndində dünyaya göz açıb. Kənddəki S.Vurğun adına orta məktəbi bitirib. Sonra Milli Ordu sıralarında qulluq edib. Vətən müharibəsi başlamazdan əvvəl "Şəmkir - Səbət" MMC-də nəzarətçi vəzifəsində işləyirdi.**



## Vətən məni çağırır

Ötən ilin sentyabrında 30 ilə yaxın erməni silahlı birləşmələri tərəfindan quldurcasına zəbt edilən Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşə yollanan könüllülər arasında 23 yaşlı Muxtar Süleymanov da var idi. Anası Tamara xanımın "heç iki il yoxdur əsğərlikdən gəlib, yenə əsgərlik?" deməsindən bir az tutulsa da, fikrini ətrafındakılara büruzə vermədi.

Muxtar çox səmimi və istiqanlı gəncdir. Ona görə qohum-qonşular, dost-tanışlar ona "Qaqaş" deyə müraciət edirlər. O, böyük qürur hissi ilə həmyaşıdları və qonşularla görüşəndə atası Nizaməddin, hərbi xidmətdən yenicə qayıtmış qardaşı Rauf çox məmnun oldular. - Mən hərbi xidmətdə olanda arzu edirdim ki, Ali Baş Komandan tərəfindən əmr olsun, erməni qəsbkarları ilə döyüşə gedim, torpaqlarımızın işğaldan azad edilməsi üçün vuruşum. Çox şadam ki, bu istəyimi yerinə yetirmək üçün imkan yaranıb. Vətən məni çağırır. Torpaqlarımızın düşmən tapdağından azad edilməsi, əsir götürülmüş, itkin düşmüş və şəhid olmuş azərbaycanlıların qisasını almaq üçün son damla qanımadak vuruşacağam. Ailəmizin, kəndimizin, rayonumuzun adını şərəflə doğruldacağam

Muxtar ötən il sentyabrın 29-da Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon idarəsindən birbaşa Gəncə şəhərindəki "N" saylı hərbi hissəyə göndərilir. Burada 10 günlük təlim-hazırlıq işlərindən sonra, oktyabrın 11-də döyüs bölgəsinə aparılır.

## İlk döyüş əməliyyatı Cəbrayılda oldu

Söhbət zamanı könüllü Muxtar Süleymanov vətənsevərlik hissləri ilə dolu döyüş yolu barədə danışdı:

- Oktyabrın 12-də Cəbrayılın düşməndən azad edilməsi əməliyyatına basladıq. Qızğın döyüşlər gedirdi, ağlıma gətirə bilmədiyim hücum əməliyyatlarının iştirakçısı oldum, hər sey yuxu kimi görünürdü. Düşmən mövqelərinə doğru irəlilədikcə sevinirdik. Bu sevinc çox çətinliklər hesabına başa gəlirdi. Təəssüf ki, Cəbrayıl uğrunda gedən döyüşlər zamanı səhərə yaxın Gədəbəy rayonundan olan könüllü döyüşçü yoldaşımız Nofəl Süleymanov namərd erməni gülləsinə tuş gəldi, ağır yaralandı, çox çalışsaq da, "təki Vətən sağ olsun! O namərdlərdən mənim də qisasımı alarsız" deyərək Cəbrayıl yüksəkliklərində gözlərini həyata əbədi yumdu. Erməni vandallarına qarşı qəzəb hissimiz daha da artdı. Növbəti gün Cəbrayılın Balyan. Qacallı, Qoşulu, Qışlar, Süleymanlı, Əfəndilər, Qumlaq, Havıslı, Veysəlli kəndlərini keçib Dağ Tumas və Siric uğrunda gedən döyüşlərdə onlarca erməni terrorçusunu məhv etdik. Döyüşçü yoldaşlarımızın hər biri ayrılıqda Nofəlin intiqamını dəfələrlə alsa da, ürəyimiz soyumurdu. Cəbrayılda erməni silahlı birləşmələri darmadağın edildikdən sonra Qubadlıya doğru istiqamət götürdük.

## Qubadlıda

- Qubadlının relyefi elədir ki, o yerləri tanımayanlar, həmin ərazilərə bələd olmayanlar üçün düşmənlə mübarizə aparmaq müəyyən qədər çətindir. Düzdür, komandirlər tərəfindən verilən tapşırıqlar zamanı bu çətinliklər o qədər hiss edilməsə də, sıxıntımız olurdu, hücum zamanı təbii ləngimələr yaranırdı. Belə çətinliklərdən biri ilə növbəti dəfə Qubadlının Güləbir kəndi uğrunda gedən döyüşlərdə rastlaşdıq. Burada 12 gun muhasirədə qaldıq, aclıq, susuzluq yoldaşlarımızda bir qədər narahatlıq yaratsa da, heç kim gileyli görünmürdü, mühasirədən qorxmurdu. Uğurlu kəşfiyyat tədbirləri nəticəsində itki vermədən erməni saqqallılarını axırıncı nəfərinə kimi məhv etdik, silah-sursatları, döyüş texnikaları qənimət götürüldü.

## Laçında

- Xoş əhvali-ruhiyyə və döyüş əzmi ilə Laçın istiqamətinə əmr aldıq. İlkin olaraq Laçının Sofiyan kəndini erməni işğalçılarından azad etmək üçün üç gun, üç gecə atışdıq, addım-addım irəlilədik. Onlara kömək üçün əlavə qüvvələr göndərilsə də, Azərbaycan Ordusu qarşısında aciz qaldılar... Erməni silahlılarının müqavimətinə rast gəldiyimiz ən ağır döyüşlərdən biri Aşagı Fərəcanlı kəndində oldu. Demək olar ki, sutka ərzində arası bir an belə kəsilməyən atəş səsləri, güllə və mərmilər dağlara, qayalara çırpılıb ərazidə təsvirolunmaz bir əks-səda yaradırdı, necə deyərlər, ağız deyəni qulaq eşitmirdi. Döyüşlərin ikinci günü erməni silahlılarının axırına çıxdıq. İrəli getmək üçün dərin dərələrdən keçməli, sıldırım qayaları aşmalı olduq. Çətinlik həm də onda idi ki, düşmən biz tərəflərə dayanmadan mərmi yagdırırdı. Hücumun və döyüşün ən həlledici məqamı Böyuk Fərəcanlı kəndinə girəndə oldu. Bu kənddən sonra Lacın dəhlizi gəlirdi, erməni yaraqlıları bu dəhlizi heç cür təslim etmək istəmirdilər. Bu istiqamətdə gedən döyüşlərdə itki versək də, nəticə uğurlu alındı. Erməni quldurlarının çoxu öldü, ölməyəni isə məcburən qaçıb canını qurtarmağa çalışdı.

## 10 noyabr 2020-ci il - Qələbəmizin mübarək günü

44 günlük Vətən müharibəsinin Zəfər qələbəsindən sonra Ali Baş Komandan İlham Əliyevin 24 dekabr 2020-ci il tarixli sərəncamı ilə könüllü əsgər Muxtar Nizaməddin oğlu Süleymanov "Cəbrayılın azad olunmasına görə" medalı, 29 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı, habelə Prezidentin 29 dekabr 2020-cil tarxli sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Çoxlarının "Qaqaş" kimi tanıdığı Muxtar Süleymanovun boyabaşa çatdığı Təzəkənd kəndinin sakinləri, ailə üzvləri və dostları, xüsusilə ona dərs vermiş orta məktəb müəllimləri, habelə "Şəmkir-Səbət" MMC-nin işçiləri gələcək nəsillərə əsl nümunə olan üçmedallı könüllü döyüşçünün hərbi şücaətlərindən qürur duyurlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Vətən sənə oğul deyib

**...Murovdağdan söz düşəndə 28 il öncə kəlbəcərlilərin minbir zülmlə aşıb gəldiyi günlər gəlir göz önünə. Murovdağdan o üz Kəlbəcərdi. 28 il idi ki, doğmalarının yolunu gözləyən bu yurdda indi kəlbəcərlilər (hələlik rəsmi idarələrin işçiləri olsa da) ocaq qalayır, çörək bişirirlər. Kəlbəcərin keşiyini Azərbaycan əsgəri çəkir...**
**Ötən ilin sentyabrında başlayan Vətən müharibəsində cəngavər igidlərimiz Murovdağın azad edilməsi uğrunda canlarından keçdilər. Belə igidlərimizdən biri də Kəlbəcərdə doğulmayan, lakin kəlbəcərlilər kimi o zirvənin alınmasında canından keçən mayor Rahib Babayev idi...**

# Murovdağın fatehi

## Şəhid mayor Rahib Babayevin "alınmaz qala"- "Canavar" postunda son kəlməsi belə olub: "Çətin günlər gəldi-gedərdir, Murovun o üzü də bizim Vətəndir!"

## Üzü dağlara-dağlara...

Babayev Rahib Bəxtiyar oğlu 1985-ci il iyunun 19-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdu. Əvvəlcə Külüsdə oxumuş, sonra isə Naxçıvan şəhər 14 nömrəli orta məktəbdə təhsilini davam etdirmişdir. 1999-2002-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə, 2002-2006-cı illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərb sənətinə yiyələnmişdi.

Sumqayıtda, Qazaxda, daha sonra isə Murovdağ silsiləsində xidmət edən, mayor rütbəsinə qədər yüksələn Rahib Babayev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə vuruşurdu. Sentyabrın 30-da başçılıq etdiyi taborla birlikdə bir neçə düşmən postunu ələ keçirmiş, misilsiz şücaətlər göstərmişdir. Sentyabrın 30-da şəhidlik zirvəsinə ucalmış Rahib Babayev oktyabrın 2-də Sumqayıt şəhərinin Şə-



hidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 90, 95 və 100 illik yubiley, eləcə də "Qüsursuz xidmətə görə" 3-cü və 2-ci dərəcəli medalları, "Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılmış və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən (ölümündən sonra) "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

## Qəhrəmanlar can verir Vətəni yaşatmaq üçün

Rahib Babayevin taboru Kəlbəcər rayonunun işğalından sonra 27 sentyabr döyüşlərinə qədər Murovdağ silsiləsində Ömər aşırımı - Yanşaq-Kəlbəcər istiqamətində yerləşən düşmən qüvvələri ilə qarşı-qarşıya müdafiədə dayanıb...

Komandiri haqqında ürəklə söz açan qazi Sərxan Abbasəliyev deyir: "Rahib Babayev xidmətinin 8 ilini Murovdağda keçirmişdi. Taqım komandirliyindən tabor komandirliyinə kimi yüksəlmişdi. Həmin taborun xidmət ərazisi Kəlbəcər-Göygöl-Daşkəsən birləşmələrindən başlayır və Göygöl-Ağdərə-Kəlbəcərə qədər əraziləri əhatə edirdi. Xüsusi qeyd etmək istəyirəm ki, düşmən quvvələri tərəfindən 1994-cü ildən möhkəmləndirilən və xüsusi əhəmiyyət kəsb edən Ömər zirvəsi (3395 m) və Ömər aşırımında (düşmən bu ərazidə 3 ayrı postda bir tabora qədər canlı quvvə cəmləmişdi) yerləşən, bizim üçün təhlükəli hesab edilən, şərti adı "Elşən zirvəsi" olan (3381 m), strateji əhəmiyyətli "Canavar-sol" və " Canavar-sağ" zirvələri, düşmənin bir bölüyə qədər quvvəsi olan 3223 m yüksəkliyi (bölük dayaq məntəqəsi) və digər adlarını qeyd etmədiyimiz quvvələr taborumuzun müdafiə xəttinin qarşısında yerləşirdi. Ərazinin relyefini bilənlər anlayır ki, düşmən bizim taborun qarşısında çox yaxşı və əlverişli hakim yüksəkliklərdə möhkəmlənmişdi. Bir neçə mövqeyimiz düşmən postlarının altında, müdafiə xəttində dayanırdı. Düşmənin Ömər zirvəsi və aşırımı, Güzgü, adsız və "Elşən zastavası"nın əhatəsində olan "Təbriz" (3159 m) çətinliyi ilə Murov istiqamətində seçilən postlardan idi. Bu posta hansı yolla gedirdiksə, düşmən bizi açıq-aşkar müşahidə edirdi. Ona görə də bu posta ancaq gecə qaranlığında və dumanlı hava şəraitində, çox ağır şərtlərlə, 4 km yol qət edərək gedə bilirdik. 1-ci taborun hər mövqeyinin öz çətinliyi var idi, nə qədər yazsam da azdır..."

## Son gedişdən qalan izlər və yollara dikilən gözlər

Döyüşçü Sərxan daha sonra deyir ki, Rahib Babayevin komandir olduğu taborlar belə çətin vəziyyətdən onun başçılığı ilə Vətən müharibəsindən üzüağ çıxmağı bacardı, həm də az itki ilə: "Taborumuz 44 günlük döyüşlərdə cəmi 4 şəhid verdi: Mayor Rahib Bəxtiyar oğlu Babayev - tabor komandiri, kapitan Rövşən Mahmud oğlu Pənahov - bölük komandiri, leytenant Sərvan Mehman oğlu Göyüşov - taqım komandiri və əsgər Behbud Rubail oğlu Behbudlu - qumbaraatan.

"Koroğlu" zirvəsinin bölük komandirinin döyüşlərin idarə edilməsində çox böyük qəhrəmanlıqları olmuşdur. Onun idarəçiliyi ilə ilk günlərdə çox yaxşı nailiyyətlər əldə edirdik. Xüsusən də tabor komandiri Rahib Babayevin "Canavar postu"nun əldə saxlanılmasında çəkdiyi əziyyətləri, 8 illik qüsursuz xidməti yəqin ki, nəzərə alınacaq və layiq olduğu qəhrəman adı ona veriləcək. O, əsl Vətən qəhrəmanıdır..."

Komandir Rahib Babayev Aygün xanımla 2008-ci ildə ailə qurub. Mələk, İbrahim və Əli adlı 3 övladları var. 13 illik evliliyin bəhrəsi olan bu uşaqlar da istedadlı olmaları ilə seçilirlər. Aygün Babayeva deyir ki, tələbəlik illərində tanış olmuşdular Rahiblə: "İlkimiz Mələkdir, 11 yaşı var, 4-cü sinifdə oxuyur, əlaçıdır. Əlinin 6, İbrahimin isə 2 yaşı var. Tale məsələsidir. Ailəmiz sevgi üzərində qurulub. Rahib Naxçıvandan, mən isə Masallıdanam. Hərbçi ailəsi olduğumuz üçün səbirliydik. Aylarla evə gələ bilmirdi, gələndə isə mənə hər işdə köməyi olurdu. Ata-anam Masallıda yaşayırlar, ali təhsilli müəllimdirlər. Rahibin atası dünyasını dəyişib. Anası, bacısı, qardaşı Naxçıvanda yaşayır...".

## Vətənpərvər komandir, qohumcanlı elsevər...

Ömür-gün yoldaşı Rahib haqqında keçmiş zamanda danışmağa öyrəşməyib, amma buna məcburdur: "... Müharibə başlamamışdan öncə, sentyabrın 13-də elə bil ki, bizimlə vidalaşmağa gəlmişdi. Öz işi haqqında heç nə soruşmurduq, çünki demirdi. Buna alışmışdıq. Evə gələndə ancaq evin, ailənin, xüsusən də uşaqların qayğıları ilə məşğul olardı. 8 il idi Murovdağda xidmət edirdi. Ötən ilin iyununda 10 günlük məzuniyyətə gəlmişdi. Biz də rayondaydıq, Masallıda, atamgildə. Ona görə də Masallıya gəlmişdi. Uşaqlarla axşama kimi həyətdə oynadı: heç bilmirdi ki, hansını qucağına götürsün..."

Murovdağın Kəlbəcər istiqamətində "Canavar sol" deyilən postda idi son günlərində. Orada da şəhid oldu. Rahib böyük qəhrəmanlıqla, şücaətlə götürmüşdü o postu. Müharibə başlayanda ermənilərdən alınan ilk post idi.

İntiqam Quliyev (qaynatası): "35 yaşı ötən ilin yayında tamam oldu. O, hər zaman Ali Baş Komandanın əmrini gözləyirdi. Deyirdi ki, axı bu əmr nə vaxt veriləcək ki, biz 30 il əsarətdə qalan torpaqlarımızı düşmən tapdağından xilas edək?! O, şərəfli bir ömür yolu keçdi. Müharibə başlayan kimi, sentyabrın 27-də öz taborunun igidləri ilə döyüş meydanına atıldı. Çox qısa zamanda düşmənin bir neçə postunu götürdü. Rahib şəhid oldu, amma indi biz onunla qürur duyuruq. Çünki bu, gələcək nəsillər üçün bir vətənpərvərlik dərsidir... Vətən torpağını qorumaq namuslu, şərəfli bir işdir. Ailəsinin də, döyüş yoldaşlarının da bircə arzusu var: mayor Rahib Babayev "Vətən müharibəsi qəhrəmanı" adına layiq görülsün. Onun buna haqqı çatır. Murovdağ zirvəsinin əldə olunmasında Rahibin xidmətləri bunu göstərir!"

Rahibin qızı Mələk deyir ki, atamla hər zaman qürur duyurdum. İndi bu hiss məndə daha çoxdur. Mənim atam qəhrəmandır!"

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***






# ƏZMİN GÜCÜ

| | Komandalar | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|---|
| **B QRUPU** | | | | | | | |
| 1 | Belçika | 3 | 3 | 0 | 0 | 7-1 | 9 |
| 2 | Danimarka | 3 | 1 | 0 | 2 | 5-4 | 3 |
| 3 | Finlandiya | 3 | 1 | 0 | 2 | 1-3 | 3 |
| 4 | Rusiya | 3 | 1 | 0 | 2 | 2-7 | 3 |

*Əvvəli 1-ci səh.*



**Finlandiya - Belçika - 0:2**
**Qol:** *Hradeki, 74-avtoqol (0:1), Lukaku, 81 (0:2)*
**Baş hakim:** *Feliks Brix (Almaniya)*
**Stadion:** *"Sankt-Peterburq"*



Xüsusilə cinah ötürmələrinə üstünlük verən Skandinaviya təmsilçisi ikili mübarizələrdə də Rusiya futbolçularından daha güclü idi. Qapıya uzaqdan vurulan zərbələrdən sonra geri qayıdan topların hamısına Danimarka futbolçuları yiyələnirdilər. Bir sözlə, onlar meydançanın bütün zonalarında sona qədər mübarizə apardılar. Bu mübarizlik də Danimarkanı növbəti mərhələyə yüksəltdi.

Qeyd edək ki, Danimarka yığması Avropa çempionatına seçmə mərhələnin D qrupunun ikincisi kimi qatılıb. Komanda İsveçrə, İrlandiya, Gürcüstan və Cəbəllütariqlə mübarizədə 8 oyunun 4-də qələbə qazanıb, 4-də isə heç-heçə edib. İsveçrədən cəmi 1 xal geri qalan Danimarka 2-ciliklə kifayətlənib. Amma Danimarka yığması qrupunun ən məhsuldar komandası olub. Rəqib qapılarına 13 qol vurub, 6 top buraxıb.

Komanda sayca 8-ci dəfə Avropa çempionatlarının final mərhələsində iştirak edir. Yığma əvvəlki 7 cəhdin yalnız birində çempion olmağı bacarıb. Bu, 1992-ci ildə baş verib. Özü də Danimarkanın çempionluğunun maraqlı hekayəsi var. Həmin zaman yığma Avropa çempionatına vəsiqə qazana bilmir. Yalnız son anda Yuqoslaviyanın dağılması səbəbindən bu ölkənin yığmasının çempionata qatılması mümkün olmur və əvəzində Danimarka dəvət alır. Turnirə günlər qalmış yığılan komanda gözlənilmədən çempion olmağı bacarır.

Rusiya yığması isə sayca 11-ci dəfə Avropa çempionatlarının final məhələsində iştirak edirdi. Yığma daha əvvəl 5 dəfə SSRİ, 1 dəfə MDB (1992-ci il), 4 dəfə Rusiya adı ilə qitə birinciliyində yarışıb. Yeganə çempionluq məhz keçmiş SSRİ dövründə qazanılıb. Komanda 1960-cı il çempionatında qalib olub. Yığma SSRİ adı ilə 3 dəfə 2-ci yeri tutub. Rusiya adı altında çıxış etdikləri çempionatlarda isə ən yaxşı nəticə 2008-ci ildə əldə edilib. Ümumiyyətlə, SSRİ dağıldıqdan sonra Rusiya millisi yalnız bir dəfə qrup səddini aşa bilib. 2008-ci ildə yarımfinala kimi irəliləyən komanda sonda Türkiyə ilə birgə bürünc medallara layiq görülüb.

❖ ❖ ❖

B qrupunun digər matçında isə Finlandiya və Belçika yığmaları üz-üzə gəldilər. Turnirin gizli favoritlərindən biri kimi göstərilən Belçika qarşılaşmanın ilk hissəsində qol vurmaqda çətinlik çəkdi. Qısa ötürmələrlə oyunu meydançanın rəqibə aid olan hissəsində keçirən belçikalılar itirilən hər topdan sonra demək olar ki, finlərə boş zona buraxmadılar.

Daha çox müdafiə olunmaqla vaxt keçirən Finlandiya futbolçuları əks hücumlarda qol vurmaq planı qururdular. Heç-heçə ilə qrupu 2-ci pillədə başa vuraraq növbəti mərhələyə yüksəlmək ümidi 74-cü dəqiqədə Hradekinin avtoqolu sayəsində puç oldu. Qoldan 7 dəqiqə sonra Lukaku Belçikanın hesabda üstünlüyünü artırdı. Amma 0:2 hesabı ilə uduzan Finlandiya yığmasının ən yaxşı qrup üçüncüsü kimi növbəti mərhələyə yüksəlmək şansı hələ də qaldı.

Qeyd edək ki, Belçika yığması sayca 6-cı dəfə Avropa çempionatlarının final mərhələsində iştirak edir. Yığma ən yaxşı nəticəsini 1980-ci ildə qazanıb. Yalnız finalda İtaliyaya uduzan Belçika turniri 2-ci yerdə başa vurub. Yığma 5 il öncə Fransada keçirilən qitə çempionatında isə dörddəbir finalda dayanıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

| | Komandalar | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|---|
| **C QRUPU** | | | | | | | |
| 1 | Niderland | 3 | 3 | 0 | 0 | 8-2 | 9 |
| 2 | Avstriya | 3 | 2 | 0 | 1 | 4-3 | 6 |
| 3 | Ukrayna | 3 | 1 | 0 | 2 | 4-5 | 3 |
| 4 | Ş.Makedoniya | 3 | 0 | 0 | 3 | 2-8 | 0 |

## "Avro-2020"nin təqvimi

23 iyun

**E qrupu**

**20:00. İsveç - Polşa**
Sankt-Peterburq. Sankt-Peterburq Stadionu

**20:00. Slovakiya - İspaniya**
Sevilya. La Kartuxa Stadionu

**F qrupu**

**23:00. Almaniya - Macarıstan**
Münhen. Münhen Arena

**23:00.Fransa - Portuqaliya**
Budapeşt. Puşkaş Arena

## Şevçenko məğlubiyyətin səbəbini açıqladı

Ukrayna millisinin baş məşqçisi Andrey Şevçenko "Avro-2020"nin son qrup matçında Avstriyaya məğlubiyyəti (0:1) şərh edib.

Matçdan sonra verdiyi açıqlamada Şevşenko komandasının fiziki baxımdan çatdırmağını etiraf edib: "Topa gecikəndə, çatdırmayanda gec ya tez səhv edirsən. Biz səhv etdik. Meydanın mərkəzində sadə vəziyyətdə topu itirirdik. Künc zərbələrində yaxşı oynamadıq. Qol buraxdıq. Bundan sonra oyuna qayıtmaq şansımız olmadı. Uşaqlar əllərindən gələni etdilər. Mən meydanda gücü qalmayan bir komanda gördüm. Ona görə də oyunu gücləndirmək üçün hansısa addım atmaq mümkünsüz idi. Hazırkı fiziki formamızın bizə imkan verdiyi səviyyədə oynaya bildik".



## Baş nazir final matçının Londonda keçirilməsinə qarşı çıxıb



İtaliyanın Baş naziri Mario Draggi "Avro-2020"nin final matçının İngiltərənin paytaxtı Londonda keçirilməsinə qarşı çıxıb.

Qol.az xəbər verir ki, o, bu barədə öz açıqlamasında bildirib. Baş nazir etirazını İngiltərədə koronavirus pandemiyasının geniş yayılması ilə əlaqələndirib: "Avro-2020"nin final matçının İngiltərədə keçirilməsinə qarşıyam. Finalın pandemiyanın yayıldığı bir ölkədə oynanılmaması üçün əlimdən gələni edəcəyəm".

İngiltərə hökuməti "Avro-2020"nin finalına görə ölkəyə gələn hər kəsi karantinə alır. Bu da o deməkdir ki, FİFA və UEFA nümayəndələri, yayımçılar, sponsorlar da daxil olmaqla 2500 nəfər karantində qalacaq. Qitənin ali futbol qurumu isə problemi həll etmək üçün İngiltərə hökuməti ilə danışıqlar aparacağını bildirmişdi.

Qeyd edək ki, final matçı iyulun 11-də keçiriləcək.

## Franko Foda hədəfini açıqladı



"Bu oyunda fantastik çıxış etdik. Komandanın çıxışından məmnunam. 1/8 finala çıxmaq əzmindəydik, tarix yazmaq istəyirdik. Futbolçuların bu vəzifəni üzərinə götürdüklərini gördüm. Komandamla fəxr edirəm".

Bu sözləri Avstriya millisinin baş məşqçisi Franko Foda "Avro-2020"nin qrup mərhələsinin 3-cü turunda Ukraynaya 1:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə yüksəldikləri oyundan sonra deyib. "Azarkeşlər üçün oynamaq istəyirdik. Buxarestə qayıtmaqdan ötrü uzun bir yol qət etdilər, buna görə onları mükafatlandıra bildiyimiz üçün xoşbəxtik", - deyə o, bildirib.

F.Foda 1/8 finalda qarşılaşacaqları İtaliya millisi haqda da danışıb: "İtaliya çoxdan məğlub olmayıb. Hazırlaşmaq və özümüzə gəlmək vacib olacaq, o zaman Londonda qalib gəlmək üçün əlimizdən gələni edəcəyik. Çətin olacaq, amma komanda həvəsli və hazırlıqlıdır".

## Almaniyada Müller şoku



*Almaniya millisi ciddi itki ilə üzləşib. Komandanın liderlərindən olan Tomas Müller zədələnib.*

*"Avro-2020"nin qrup mərhələsinin 2-ci turunda Portuqaliya ilə görüşdə diz bağlarından xəsarət alan hücumçu son məşqdə iştirak etməyib. Onun bu gün Macarıstanla keçiriləcək qrupun sonuncu görüşündə iştirak etməyəcəyi bildirilib. 31 yaşlı hücumçu komandası 1/8 finala çıxacağı halda bu mərhələninin oyununu da buraxa bilər.*

## «Avro-2020»də ilk baş məşqçi ayrılığı

"Avro-2020"nin iştirakçılarından Şimali Makedoniya millisinin baş məşqçisi İqor Angelovski vəzifəsindən ayrılacaq. Bu barədə mütəxəssis özü açıqlama verib.

O, iyulun 31-də başa çatacaq müqaviləsini yeniləməyəcəyini bildirib: "Bu komandaya Avropa çempionatında rəhbərlik etmək mənim üçün şərəf idi. Daha yaxşı çıxış etmək istəyirdik. Lakin üzülməyə də dəyməz. Çünki bu, bizim böyük turnirlərdə debütümüz idi. Mən futbolçulara səylərinə görə yalnız təşəkkür edə bilərəm. Onu da demək istəyirəm ki, iyulun 31-də başa çatacaq müqaviləm bitəndə yığmadan gedəcəyəm".

Qeyd edək ki, Şimali Makedoniya millisi tarixində ilk dəfə Avropa çempionatının finalına vəsiqə qazansa da, qrup mərhələsində 3 görüşün hər birində uduzub.



## Çakır yeni rekordun astanasında



Türkiyə Futbol Federasiyasınn hakimi Cüneyt Çakır üçün "Avro-2020"nin qrup mərhələsinin Ukrayna - Avsrtiya oyunu (0:1) əlamətdar olub.

Bu matç 44 yaşlı hakimin Avropa çempionatlarının final mərhələsində idarə etdiyi 8-ci görüş idi. Beləliklə, o, bu göstərici üzrə hakim Anders Friskin rekordunu təkrarlayıb.

C.Çakır "Avro-2008" və "Avro-2012"nin hərəsində 3, "Avro-2020"də isə indiyə kimi 2 qarşılaşmada baş hakim olub. O, bu görüşlərdə ümumilikdə 31 sarı və 1 qırmızı vərəqə göstərib. Çakıra daha bir matç həvalə olunacağı halda yeni rekord müəyyənləşdirəcək.

# Media da islahatlara hazırlaşır

Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə "Mediada islahatlara doğru" silsilə seminarlar keçirilir.



Əsas məqsədi media nümayəndələri arasında təcrübə mübadiləsinin aparılması olan seminarlarda 75 media nümayəndəsi iştirak edir. Onlar hər birində 25 nəfər olmaqla 3 qrupa bölünüblər. Seminarın ilk günü Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Media haqqında" qanun layihəsinin müddəalarını tədbir iştirakçılarının nəzərinə çatdırıb. Sual-cavab şəraitində keçən müzakirədə jurnalistlər tərəfindən layihəyə bəzi əlavələrin edilməsi tövsiyə olunub.

ADA Universitetində keçirilən seminarlarda media və kommunikasiya üzrə mütəxəssis Şəfəq Mehrəliyeva, adıçəkilən universitetin icraçı direktoru Fariz İsmayılzadə, eləcə də iordaniyalı jurnalist Montaser Marai, Al Jazeera English-in müxbiri Rəsul Sərdar Ataş, həmin kanalın fələstin əsilli amerikalı jurnalisti Renee Odeh, Haber Global-ın xəbər koordinatoru Con Mumay və başqaları iştirakçılarla təcrübə mübadiləsi aparırlar.

Seminarlara iyulun 10-da yekun vurulacaq.

# İyulun 1-dən Azərbaycanda şənlik mərasimlərinin keçirilməsinə icazə verilir

*Əvvəli 1-ci səh.*

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarına əsasən 2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasport tələbi tətbiq olunan məkanlarda çalışan işçi heyətin (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) azı 80 faizinin COVID-19 pasportuna malik olması mütləqdir (1 avqustadək birinci doza qeyd olunmuş vaksinasiya sertifikatı qəbul edilir). Şənlik mərasimində xidmət göstərən heyətin (musiqiçilər istisna olmaqla) tibbi maskalardan, əlcəklərdən və digər fərdi qoruyucu vasitələrdən istifadəsi məcburidir;
- şənlik mərasimi keçirilən məkanın və ya müəssisənin sahibi tərəfindən həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan işçi heyət (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumat müvafiq portala (icaze.e-gov.az) daxil edilməldir. Portal 2021-ci il 26 iyun tarixindən etibarən müvafiq məlumatları daxil etmək üçün aktiv ediləcəkdir;
- keçiriləcək tədbirin tarixinə ən azı 5 gün qalmış tədbirin keçirilmə tarixi, başlama və bitmə vaxtı (saat 0:00-dan gec olmamaq şərtilə), qonaq sayı barədə məlumatlar portala daxil edilməlidir. Portal üzərindən qeydiyyata salınmayan və barəsində müvafiq məlumat daxil edilməyən şənlik mərasimlərinin keçirilməsi qadağandır;
- şənlik mərasimlərinin təşkili və keçirilməsi zamanı karantin rejiminin qaydalarına əməl edilməsi ilə bağlı şənlik və məkan sahibi arasında müştərək məsuliyyət barədə iltizamnamə imzalanmalıdır. Müəyyən olunmuş tələblərin pozulması hallarına görə məkan və şənlik sahibi birgə cavabdehlik daşıyacaqlar;
- sanitar-epidemioloji tələblərə riayət olunması məqsədilə yuxarıda qeyd olunan məsələləri və digər tələbləri özündə ehtiva edən metodiki göstərişlər təsdiq olunaraq şənlik mərasimlərinin təşkili və keçirilməsində rəhbər tutulacaqdır;
- 50 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərinin "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"də müəyyən olunmuş tələblərə uyğun olaraq təşkil edilməsinə icazə verilir (tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbi saxlanılmaqla) və həmin şənlik mərasimlərində iştirak üçün COVID-19 pasportunun təqdim edilməsi tələb olunmur;
- 150 nəfərdən artıq iştirakçısı olan şənlik mərasimlərinin keçirilməsi növbəti yumşalma barədə qərar qəbul olunanadək qadağan edilir;

İctimai iaşə obyektlərinin monitorinqləri ilə yanaşı, 50 nəfərdən 150 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində koronavirus infeksiyasının idarə olunması ilə bağlı nəzarəti təmin etmək məqsədilə müntəzəm yoxlamalar aparılacaqdır. Monitorinq qrupları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələrindən ibarət tərkibdə təşkil olunacaqdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manatdan on bir min manatadək məbləğdə cərimə edilir. Hüquqi şəxslər tərəfindən pozuntu halı təkrar baş verdiyi təqdirdə, şənlik mərasimi keçirilən müəssisənin fəaliyyətinin dayandırılmasına dair qanunvericiliklə müəyyən edilmiş hallarda qərar qəbul edilə bilər.

Suallar olduğu təqdirdə 9108 nömrəli qaynar xəttə müraciət oluna bilər.

# FHN taxıl biçini mövsümü ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) taxıl biçini mövsümü ilə əlaqədar əhaliyə yanğın təhlükəsizliyinə dair müraciət edib.

FHN-in Mətbuat xidmətinin rəhbəri Gülçin Mehdiyeva AZƏRTAC-a açıqlamasında bildirib ki, taxıl tədarükü əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan tez alışma xassəsinə malik taxıl sahələrinin yanğın təhlükəsindən qorunması ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasının vacib şərtlərindəndir.

G.Mehdiyeva vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyi məhz bu amilləri və biçin mövsümünün ilin isti və quraq dövrünə təsadüf etdiyini nəzərə alaraq əhaliyə, o cümlədən təsərrüfat sahibləri və taxıl yığımında iştirak edən şəxslərə müraciət edib. Müraciətdə yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmasının vacibliyi bildirilir, bununla bağlı sadə və zəruri qaydaları bir daha diqqətə çatdırılır:

- taxıl zəmilərində kibrit yandırmaq, açıq oddan istifadə etmək, o cümlədən siqaret çəkmək, zəmilərin yaxınlığında tonqal qalamaq qəti qadağandır! Bu məkanlarda siqaret çəkmək üçün xüsusi yer ayrılmalıdır!
- yolla hərəkət edərkən tam söndürülməmiş siqaret kötüyü və ya kibriti, yanar mayelərlə islanmış materialları, eləcə də şüşə qab və şüşə qırıntılarını ətrafa atmaq yolverilməzdir;
- taxıl zəmilərinin ətrafı quru ot və tullantılardan vaxtaşırı təmizlənməlidir;
- biçində iştirak edən texnikalar ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalı, biçinə başlamazdan əvvəl yanğın-texniki müayinədən keçirilməlidir;
- işdən sonra texnikanın sahələrdə saxlanılması, gecə vaxtı yanacaqla doldurulması, yanacaq və yağların ətrafa tökülməsinə yol verilməsi, texnikalarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması qəti qadağandır!
- tarla düşərgələri, taxıltəmizləmə xırmanları, ot və küləş tayaları yığılan sahələr ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir;
- yanğın baş verərsə, iş dərhal dayandırılaraq ətrafdakılar məlumatlandırılmalı, əlaltında olan ilkin yanğınsöndürmə vasitələri ilə (odsöndürən, motopompa, su, torpaq, qalın parça materialı və s.) yanğını söndürməyə çalışılmalı və 112 - qaynar xəttinə məlumat verilməlidir.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

# 100 mindən çox "Azercell" abunəçisinə 5GB aylıq internet paketi hədiyyə olunub

## Şirkət 4G dəstəkləyən SİM kartları pulsuz təqdim edir

"Azercell"in 5GB aylıq internet paketi qazandıran kampaniyası davam edir. Ötən ilin oktyabrında başlayan kampaniya çərçivəsində artıq 100 mindən çox abunəçisinin SİM kartı dəyişdirilib. Onların hər birinə ödənişsiz əsaslarla 4G-ni dəstəkləyən yeni SİM kartla yanaşı, 5Gb aylıq internet paketi də hədiyyə olunub.




Müasir dövrün çağırışları istənilən sahədə (bank, nəqliyyat, təhlükəsizlik, səhiyyə, kommunal xidmətlər və s.) yüksək texnologiyalardan istifadəni zəruri edir. Hazırda "Azercell"in 4G şəbəkəsi ilə 240 mbit/san qədər endirmə, 95 mbit/san qədər isə yükləmə sürəti əldə olunur. 4G texnologiyası abunəçilərin mobil TV, videokonfrans, onlayn oyun, müxtəlif proqramlardan daha rahat istifadəsinə və kəsintisiz səsli zənglər etməsinə, böyük həcmli videoları daha yüksək keyfiyyətdə izləməsinə, bu faylları daha tez yükləyib ötürməsinə şərait yaradır.

4G-nin üstünlüklərindən istifadə etmək üçün 4G-ni dəstəkləyən mobil telefonun və yeni nəsil LTE texnologiyasını dəstəkləyən USİM sim kartının olması əsas şərtdir. SİM kartın 4G dəstəkləməsini yoxlamaq üçün 4G yazıb 2525-ə göndərmək kifayətdir. Əgər SİM kart bu texnologiyanı dəstəkləmirsə, istənilən "Azercell" satış və ya xidmət mərkəzinə yaxınlaşaraq ödənişsiz əsaslarla nömrənin 4G dəstəkləyən dublikatını əldə etmək və birdəfəlik bonus şəklində 5Gb aylıq internet paketi qazanmaq mümkündür. Qeyd edək ki, kampaniya yalnız 4G şəbəkəsini dəstəkləməyən SİM karta sahib olan abunəçilərə şamil olunur.

# Azərbaycan Respublikasının Dövlət Neft Fondu açıq tender elan edir

**LOT-1.** Avadanlıqlar üçün cari təmir materiallarının satın alınması;
**LOT-2.** Əsas fondlara (Transformatorlara, aşağı və orta gərginlikli elektrik qurğularına) texniki xidmətin satın alınması.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) yuxarıda qeyd edilmiş satınalma predmetləri üzrə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir.

eTenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

İdiaçılara təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (bundan sonra - Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

eTenderdə iştirak haqqı LOT 1 üzrə 200 AZN, LOT2 üzrə isə 100 AZN məbləğində müəyyən edilmişdir. İddiaçılar iştirak edəcəkləri LOT üzrə müəyyən edilmiş iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra eTenderin Azərbaycan dilində tərtib edilmiş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər. eTenderdə iştirak üçün tələb olunan sənədlərin siyahısı Portalda və Əsas Şərtlər Toplusunda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 14 iyul 2021-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 26 iyul 2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 27 iyul 2021-ci il saat 10:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar eTenderlə bağlı yaranmış sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

eTender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təkliflər sorğusu elan edir

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin inzibati binasında 7 ədəd liftə 2021-ci il ərzində texniki xidmətlərin satın alınması.

**Maraqlanan təşkilatlar emil.memishov@maliyye.gov.az elektron poçt ünvanı və ya 012-404-46-99 (daxili 476) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.**

**Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 07.07.2021-ci il saat 10:00-dək qəbul olunur.**
**Ünvan: Bakı şəhəri, Az 1022, S.Vurğun küçəsi, 135**

***Satınalma komissiyası***

# B İ L D İ R İ Ş

31.05.2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalında (https://www/etender.gov.az) və "Azərbaycan" qəzetinin 01 iyun 2021-ci il tarixli nömrəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Talassemiya bölməsi üçün spesifik dərman vasitələrinin satın alınması üçün elan edilmiş açıq tender (elektron) iddiaçının sorğusu əsasında "Dövlət satınalmaları haqqında" qanunun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi **30 iyun 2021-ci il saat 11:00-dək,** tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə **08 iyul 2021-ci il saat 11:00-dək uzadılır**. Tender üzrə təklif zərflərinin açılışı **09 iyul 2021-ci il saat 11:00-da** keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 24 aprel 2021-ci il tarixdə elan edilmiş **Müxtəlif növ elektrik mallarının satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Electro Service" QSC** tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# SIĞORTA SEKTORUNDA LƏĞV EDİLMİŞ LİSENZİYALAR BARƏDƏ MƏLUMAT

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə Mustafayev Hamlet Cəmil oğluna sığorta agenti fəaliyyətinə verilmiş 20 sentyabr 2012-ci il tarixli 000754 nömrəli lisenziya ləğv edilmişdir.

***Satınalmalar komissiyası***

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Büdcə Məlumat İdarəetmə Sisteminin (BMİS) fəaliyyətini təmin edən zəruri server və şəbəkə avadanlıqlarının satın alınması məqsədilə *tender elan edir*

1. Tenderin predmeti: Büdcə Məlumat İdarəetmə Sisteminin (BMİS) fəaliyyətini təmin edən zəruri server və şəbəkə avadanlıqlarının satınalınması.
2. Tender iştirakçıları https://www.etender.gov.az/ dövlət satınalmaların vahid internet Portalına (Portala) elektron imza vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumat əldə etməlidirlər.
3. İddiaçılar, Azərbaycan Respublikası Maliyyə Nazirliyinə tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər (Portal vasitəsilə):

**Təşkilati və hüquqi sənədlər bölməsi üzrə sənədlər**

3.1. iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (notarial qaydada təsdiq edilmiş);
3.2. qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
3.3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması barədə arayış;
3.4. son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
3.5. iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
3.6. son hesabat ili üçün fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;
3.7. iddiaçının mikro, kiçik və ya orta sahibkar olması barədə sənəd (Müvafiq orqan tərəfindən verilən arayış).

**İddiaçının ixtisas göstəricilərinə dair sənədlər**

3.8. iddiaçının müvafiq sahədə korporativ müştəriləri və son 3 (üç) il üzrə iş təcrübəsini (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu daxil olmaqla) əks etdirən məlumatlar;
3.9. maliyyə informasiyası (Şərtlər toplusunun 4 nömrəli əlavəsinə uyğun);
3.10. ixtisaslaşma məlumatları (Şərtlər toplusunun 3 nömrəli əlavəsinə uyğun); İddiaçının işçilərinin təcrübəsi və peşəkarlığına dair Əlavə 3-də göstəriləcək məlumatlar əsasında ixtisas uyğunluğu aparılacaqdır. İşçilərinin müvafiq təcrübəsi olmayan iddiaçılar qiymətləndirilmə proseduruna buraxılmayacaqdır.
3.11. müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxsin olmaması (Müvafiq orqan tərəfindən verilən arayış);

7. Büdcə Məlumat İdarəetmə Sisteminin (BMİS) fəaliyyətini təmin edən zəruri server və şəbəkə avadanlıqlarının satın alınması məqsədilə keçirilən elektron tenderdə iştirak etmək istəyən iddiaçılar tenderdə iştirak üçün 500 (beş yüz) manat iştirak haqqı ödədikdən sonra tenderin şərtlər toplusunu dövlət satınalmaların vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Tenderin iştirak haqqı "ASAN ödəniş" sistemi ilə bu hesaba köçürülməlidir:

**VÖEN 1400108191, Ünvan: Bakı şəhəri, S. Vurğun küçəsi-135**
**Dövlət Xəzinədarlıq Agentliyi kod: 210005**
**M/hesabı: AZ41NABZ01360100000000003944, VÖEN 1401555071**
**S.W.İ.F.T. BİK: CTREAZ22, Maliyyə Nazirliyi kitab 002527-2108571**
**Hesab №AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyəsinin kodu: 7, Təsnifatın kodu: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

8. İddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2021-ci ilin iyul ayının 14-ü saat 12:00-dək, tender təklifi və bank təminatını isə 2021-ci ilin iyul ayının 26-sı saat 14:00-dək dövlət satınalmaların vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.
9. İddiaçıların təklifləri 2021-ci ilin iyul ayının 27-də saat 12:00-da açılacaqdır. Təkliflərin açılması dövlət satınalmaların vahid internet Portalında aparılacaqdır.

Təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.

10. Tenderlə əlaqədar əlavə məlumat almaq üçün əlaqələndirici Nurlan Soltanov. Telefon: (99412) 404-34-43
11. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs
## *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları və ya asan imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. "Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri üzrə dərman vasitələri"nin satın alınması.

İştirak haqqı:

LOT-1. 200.00 (iki yüz manat 00 qəpik) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: "Kapital Bank" ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
3. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
5. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü təşkil etməlidir.
6. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır).
7. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
8. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya malik olması.
9. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə uyğun olması haqqında sənəd.
10. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat *(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14.07.2021-ci il saat 10:00-a qədər,** tender təklifi və tender təklifinin bank təminatını isə **26.07.2021-ci il saat 10:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.07.2021-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs tibb müəssisələri üçün spesifik dərman vasitələrinin satın alınması üzrə
## *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları və ya asan imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Tibb müəssisələri üçün spesifik dərman vasitələrinin satın alınması.

İştirak haqqı:

LOT-1. 250.00 (iki yüz əlli manat 00 qəpik) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: "Kapital Bank" ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
3. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
5. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü təşkil etməlidir.
6. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır).
7. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
8. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya malik olması.
9. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə uyğun olması haqqında sənəd.
10. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat *(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14.07.2021-ci il saat 11:00-a qədər**, tender təklifi və tender təklifinin bank təminatını isə **26.07.2021-ci il saat 11:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.07.2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## *açıq tender elan edir*

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması respublikanın 5 şəhər və rayonunda (Bərdə, Şabran, Xaçmaz, Gədəbəy, Cəlilabad) cəmi 35 ədəd olmaqla ikiotaqlı və üçotaqlı fərdi evlərin tikintisi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank : Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri **(Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Sənədlər notarial təsdiqlənməlidir).**
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması **(Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir) yalnız 01.06.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.**
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti **(2019 və ya 2020-ci illər üzrə).**
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı. Bank hesabında qalıq vəsait və ya kredit xətti imkanı ən azı 700000,0 manat olmalıdır **(Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir) yalnız 01.06.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.**
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması.
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.
9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. **Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir).**
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.
14. Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 16.07.2021-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 28.07.2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.07.2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"
*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 19 may 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə 2021-ci ildə təhsil müəssisələri üçün poliqrafiya məhsullarının istehsalı məqsədilə keçirilmiş açıq tenderlərin Tender komissiyasının qərarına əsasən nəticələri:

- 2021-2022-ci tədris ilinə ibtidai təhsil səviyyəsinin 2, 3 və 4-cü sinifləri üçün kağız dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderin qalibi "Təhsil Nəşriyyat-Poliqrafiya" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuş və 17 iyun 2021-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır;
- 2021-2022-ci tədris ilinə peşə təhsil pilləsi üçün kağız dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderin qalibi "Aspoliqraf LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuş və 17 iyun 2021-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, Ə.Əliyev küçəsi, 10 və Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanlarında yerləşən inzibati binaları üçün dezinfeksiyaedici kabinlərin alınması və quraşdırılması işlərinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının qərarına əsasən fərdi sahibkar Şahin Ələskər oğlu Soltanov qalib elan edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

Xüsusi texnika və nəqliyyat vasitələri üçün şinlərin satın alınması məqsədilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş açıq tenderdə (e-tender) "TS Motors" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən Videoçarxların və infoqrafikaların hazırlanması xidmətlərinin satın alınması üçün elan edilmiş açıq tender üzrə tələb olunan sənədlərin son təqdim olunma tarixi və vaxtı 01.07.2021-ci il saat 15:00-a, təkliflərin son təqdim olunma tarixi və vaxtı 09.07.2021-ci il saat 15:00-a, zərflərin açılış tarixi və vaxtı 12.07.2021-ci il saat 15:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC İstismar sahələrində iş yerlərinin əmək şəraitinin attestasiyasının keçirilməsi üzrə xidmətin satın alınması üzrə kotirovka sorğusu elan edir

"Bakı Metropoliteni" QSC-nin İstismar sahələrində iş yerlərinin əmək şəraitinin attestasiyasının keçirilməsi üzrə xidmətin satın alınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 25.06.2021-ci il saat 16:00-dək qəbul olunur.

Təkliflər 28.06.2021-ci il saat 15:00-da açılacaqdır.

Ünvan: Bakı ş., M.Rəfili, 16, tel: (012) 490-00-91.

Əlaqələndirici şəxs: Rauf Yusifov

***Satınalmalar komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Hüseyn Kərimova atası

**RAFİQ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5179
Sifariş 1131
Qiyməti 40 qəpik